# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

14-16
MART
2020-ci il
№ 46 (4177)
Qiymәti 40 qәpik

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

# PREZİDENTİN BEYNƏLXALQ ƏLAQƏLƏR SAHƏSİNDƏ ÇALIŞMIŞ DEPUTATLARDAN NARAZILIĞININ CİDDİ ƏSASLARI...

■ səh. 2 ■

Ermənilər Prezident Əliyevin xəritələr barədə çıxışını da saxtalaşdırdı - həm yerini, həm də məzmununu...

■ səh. 5 ■

Virusa qarşı Operativ Azərbaycan qərargahının ən yeni zəruri tədbirləri - kimin xoşuna gəlsə də, gəlməsə də...

■ səh. 6 ■

Azərbaycan Ermənistanın KTMT ümidlərinin üzərindən yeni xətt çəkdi - atəşkəs pozuntusunu təmas xəttindən dövlət sərhədinə keçirməyin əsas məqsədi...

■ səh. 9 ■

Bakı-Minsk əlaqələrində tərəqqi İrəvanı şoka salan həddə çatır - daha bir fakt...

■ səh. 8 ■

75 ABŞ konqresmeninin ermənipərəst demarşı - Ermənistana və "Artsaxa" 100 və 1,5 milyon yardım, qondarma "DQR"in rəhbərlərinin səfərinə qadağa götürülsün...

■ səh. 7 ■

Seçkidən bir-iki ay əvvəl tələsik dolub dərhal da boşalan partiyalar - buna ən çox Ana Vətən məruz qaldı...

■ səh. 7 ■

Cəmiyyət koronavirusa görə toy ziyafətlərini təxirə salmağa meyllidir, ancaq restoran sahiblərinin səsi çıxmır...

■ səh. 13 ■



■ səh. 3-4 ■

## Azərbaycan «koronavirus kabusunu» sındırdı, 3 nəfər sağaldıldı, bütün kütləvi toplantı və iaşə tədbirləri qadağan edildi



Azərbaycan dünya neft bazarındakı ajiotaja ən inamlı dözüm göstərən ölkələr sırasında...

■ səh. 12 ■



Elçibəy dövründən qalma kadr sayılan Şirzad Abdullayev kimdir...

■ səh. 11 ■

Koronavirus təhlükəsinə görə Novruzun hansı mərasim qaydalarından könüllü imtina etməliyik...

■ səh. 6 ■

■ səh. 2 ■

Ermənistan Azərbaycanın sərhəd qüvvələrindən sonra Əlahiddə Ümumqoşunu hədəfə alır - taktika dəyişikliyi, ya sadəcə təxribat...



■ səh. 5 ■

Koronavirusla mübarizə dövrünün uzanması Qarabağ sülh prosesinə hansı təsirləri göstərəcək...



■ səh. 10 ■

ABŞ Departamentinin Azərbaycan həbsxanalarındakı bəzi məsələlərə tənqidi rəyinə əsaslı etirazlar var



■ səh. 14 ■

Azərbaycanda distant təhsilə keçmək zərurəti yaransa - bu internet sürətilə hara getmək olar...



■ səh. 13 ■

Sürücülərimizin "viktim davranış" problemi - maşın qarətlərinə görə hər günahı mühafizə sisteminin üstünə atmaq doğrudurmu...



**Məlum olduğu kimi, Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasında geniş çıxış edərək bir sıra məsələlərə toxunub. Ölkə başçısının çıxışından məlum oldu ki, o, əvvəlki parlamentdə təmsil olunan deputatların beynəlxalq təşkilatlardakı fəaliyyətindən məmnun deyil. Bununla bağlı Prezidentin səsləndirdiyi bir sıra iradlar bu qənaətə gəlməyə əsas verir.**

# Prezidentin beynəlxalq əlaqələr sahəsində çalışmış deputatlardan narazılığının ciddi əsasları...



## *Əli Orucov: "Həqiqətən də bir sıra beynəlxalq qurumlarda fəaliyyət göstərmiş deputatların işini qənaətbəxş hesab etmək olmaz"*

Məsələ ondadır ki, Prezident İlham Əliyev çıxışında beynəlxalq təşkilatlarda təmsil olunan deputatları indiki dövrdə daha da fəal olmağa çağırdı: "Çünki biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq".

Dövlət başçısı qeyd edib ki, tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir: "Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar. Mən Münhendə "Kürəkçay" sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada, ümumiyyətlə, söhbət belə getmir. Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan, özü də rusca yazılmışdır İbrahim xan "Karabaxski Şuşinski". Bax, budur real tarix. XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir".

Prezident diqqətə çatdırıb ki, bütövlükdə, beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz daha məqsədyönlü olmalıdır: "Orada bizi təmsil edən deputatlar fəal olmalıdırlar, turist kimi getməməlidirlər, sonra hesabat verməlidirlər ki, nə iş görmüsən, kiminlə görüşmüsən, hansı məsələni qaldırmısan. Yoxsa, bəzi hallarda bu, turist səfərlərini xatırladır. Getdik, görüşdük, oturduq, danışdıq, yedik, qayıtdıq. Özü də bəzi səfərlər, ümumiyyətlə, qəbuledilməzdir. Mən bu gün bu haqda çox danışmaq istəmirəm, amma bilirəm nə baş verir, hansı hadisələr baş verir. Ona görə biz beynəlxalq fəaliyyətimizin səmərəliliyini artırmalıyıq".

Göründüyü kimi, Prezidentin beynəlxalq əlaqələr sahəsində çalışmış deputatlardan narazılığının ciddi əsasları var. Bununla bağlı ölkə başçısı çox ciddi arqumentlər ortaya qoydu.

*"Azərbaycanı beynəlxalq təşkilatlarda təmsil edən deputat korpusunun tərkibinə xüsusi fikir vermək lazımdır"*

Maraqlıdır, bəs ekspertlər bütün bunları necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, ölkə başçısının beynəlxalq təşkilatlarda təmsil olunan əvvəlki deputatların fəaliyyəti ilə bağlı səsləndirdiyi fikirlər tamamilə əsaslıdır: "Həqiqətən də bir sıra beynəlxalq qurumlarda fəaliyyət göstərmiş deputatların işini qənaətbəxş hesab etmək olmaz. Çünki fəaliyyətləri dövründə Azərbaycan həqiqətlərini arzuolunan səviyyədə beynəlxalq müstəvidə çatdırmağa maraq göstərməyiblər. Hansı ki, həmin təşkilatlarda Qarabağla bağlı həqiqətləri yaymaq üçün geniş imkanlar olub. Ancaq reallıq ondan ibarətdir ki, millət vəkilləri bu imkanlardan maksimum səmərəli istifadə etməyiblər. Qarabağla bağlı bir sıra tarixi faktları beynəlxalq təşkilatların tribunasından səsləndirmək lazım idi. Yaxud da fərdi şəkildə dünya ölkələrini təmsil edən deputatlara bu faktları göstərmək mümkün idi. Beləcə, mərhələ-mərhələ Ermənistanın işğalçı siyasətini ifşa etmək olardı. Əfsuslar olsun ki, beynəlxalq qurumlarda Azərbaycanı təmsil edən deputatlar yetərincə iş görməyiblər.

O baxımdan bununla bağlı səslənən iradlar həqiqəti əks etdirir. Düzdür, beynəlxalq təşkilatların timsalında Azərbaycana yönəlik ikili standartlar var və bunu danmaq olmaz. Ancaq bu o demək deyil ki, sözügedən təşkilatlarda Qarabağ həqiqətləri ilə bağlı təşəbbüslərlə çıxış etməyəsən. Bu baxımdan hesab edirəm ki, Azərbaycanı beynəlxalq təşkilatlarda təmsil edən deputat korpusunun tərkibinə xüsusi fikir vermək lazımdır. Həmin tərkibdə elə deputatlar olmalıdır ki, onlar xarici dil bilsinlər. Ən başlıcası, milli və dövlət maraqlarının qorunmasına xüsusi önəm verən şəxslər orada olmalıdırlar. Eyni zamanda, onlar bununla bağlı gördükləri işlər barədə hesabat verməlidirlər. Yoxsa, formal olaraq, hansısa mötəbər tədbirdə iştirak etməyin heç bir faydası olmayacaq".

***Vidadi ORDAHALLI***

**Martın 12-si səhər saatlarından Ermənistan silahlı qüvvələrinin bölmələri Əlahiddə Ümumqoşun Ordusunun mövqelərini atəşə tutmaqla atəşkəs rejimini kobud şəkildə pozub.Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

# Ermənistan Azərbaycanın sərhəd qüvvələrindən sonra Əlahiddə Ümumqoşunu hədəfə alır - taktika dəyişikliyi, ya sadəcə təxribat...




## *İbrahim Rüstəmli: "İstər Dağlıq Qarabağda, istərsə də sərhəddə baş verən hadisələr eyni mərkəzdən idarə olunur və məsuliyyəti də Paşinyanın siyasi komandası daşıyır"*

Əsasən düşmənin Ararat rayonu ərazisindəki Tejqar və Bağarsıq dağlarının ətəklərində yerləşən mövqelərindən qarşı tərəfdə yerləşən Əlahiddə Ümumqoşun Ordusunun mövqeləri iriçaplı pulemyot və snayper tüfənglərindən intensiv atəşə məruz qalıb.

Əlahiddə Ümumqoşun Ordusunun şəxsi heyəti tərəfindən qətiyyətli cavab tədbirləri görülür və atəşkəs rejiminin pozulmasının fəsadları araşdırılır. Hazırda əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Qeyd edək ki, son vaxtlar Ermənistan silahlı qüvvələri işğal altındakı ərazilərdə deyil, məhz Azərbaycan-Ermənistan sərhədində atəşkəsi pozmaqda davam edir. Bundan bir neçə gün əvvəl biz belə fəallığı Qazax istiqamətində gördük və bunun nəticəsində 3 hərbçimizi itirdik. Müdafiə Nazirliyinin yaydığı son bəyanatdan da görünür ki, Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozublar.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub.

Ermənilərin Sərhəd Qoşunlarımızdan sonra Əlahiddə Ümumqoşun Ordusunu hədəfə alması nəyin əlaməti sayıla bilər?

Hərbi-siyasi icmalçı İbrahim Rüstəmli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, baş verən bütün hadisələrin məsuliyyəti Ermənistan siyasi rəhbərliyinin üzərinə düşür: "Bütün beynəlxalq hüquqi sənədlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Ermənilər bunu tam anladıqları üçün münaqişənin ömrünü uzatmaq məqsədilə müxtəlif təxribatlara əl atırlar. Bu proses heç vaxt dayanmayıb. Onların bütün hakimiyyətləri Qarabağ kartından öz siyasi məqsədləri üçün istifadə ediblər. Paşinyan nümayişkaranə şəkildə Ermənistan vətəndaşı olan oğlunu işğal altında olan ərazilərdə hərbi xidmətə göndərirsə, deməli, burada bütün məsuliyyət Ermənistan siyasi rəhbərliyinin üzərindədir. Digər tərəfdən isə Paşinyan deyir ki, Qarabağda qarabağlılar döyüşür, bizim ora aidiyyətimiz yoxdur. Təzadı görürsünüz. Onlar özləri-özlərini idarə etmir. Bütün bu proseslərin ssenarisini yazan adamlar var. Onlar hansı düyməni basırlarsa, həmin hadisə də yaşanır. Bununla demək istəyirəm ki, istər Dağlıq Qarabağda, istərsə də sərhəddə baş verən hadisələr eyni mərkəzdən idarə olunur və məsuliyyəti də Paşinyanın siyasi komandası daşıyır. Son hadisələr də Azərbaycanın ərazi bütövlüyünə qarşı növbəti təxribat cəhdidir.

Məqsəd diqqəti yenidən bu prosesə yönəltməkdir. Onlar informasiya savaşında çox mobil şəkildə təşkilatlanıblar. Biz də bu istiqamətdə səylərimizi birləşdirməliyik ki, Ermənistanın niyyətləri baş tutmasın. Təbii ki, Azərbaycanla sərhəddə onların təxribatları baş tutan deyil. Ordumuz çox güclüdür, layiqli cavablarını verəcəyik. Hadisələri dünya ictimaiyyətinə elə çatdırmalıyıq ki, Ermənistanın bütün niyyətləri ifşa edilsin".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan "koronavirus kabusunu" sındırdı, 3 nəfər sağaldıldı, bütün kütləvi toplantı və iaşə tədbirləri qadağan edildi

**Azərbaycan Texniki Universitetinin (AzTU) rəhbərliyi koronavirusla bağlı şayiə yayan tələbələrə ciddi xəbərdarlıq edib. Bu barədə "Trend"ə AzTU-nun mətbuat xidmətinin rəhbəri Sevinc İsgəndərova deyib. Onun sözlərinə görə, universitet rəhbərliyi tərəfindən həmin tələbələrə ciddi xəbərdarlıq olunub:**




"Tədris başlayanda bir daha belə bir halın yaşanmaması üçün xəbərdarlıq ediləcək, eyni zamanda təlim-tərbiyə işinə nəzarət gücləndiriləcək".

Xatırladaq ki, Azərbaycan Texniki Universitetinin 3-cü kurs tələbəsi Faiq Həsənov tələbə yoldaşı Eyvaz Cəfərovun koronavirusdan ölməsi barədə məlumat yayıb. Tələbələrin zarafatlaşması ictimaiyyət arasında ciddi başa düşülüb və böyük rezonansa səbəb olub.

**Şayiələrin yayılmasına dəstək olanlar…**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) əhalini koronavirusla (COVİD-19) bağlı şayiələrin yayılmasına dəstək olmamağa çağırıb. Birlik əhalini ən son və doğru məlumatları rəsmi mənbələrdən almağa səsləyib.

**Hotellərdə bron yerlər ləğv edilir**

Koronavirusla əlaqədar yaranan qlobal problemə görə ölkədəki hotellərin dolma göstəricisi aşağı düşüb. Hazırda bu göstəricilər dəqiqləşdirilir. Bunu deyən Azərbaycan Hotel Assosiasiyasının (AHA) Baş icraçı direktoru Günay Sağlamın sözlərinə görə, hotellərdə bronlaşdırılan yerlərin ləğvi davam etdiyindən qarşıdakı aylarda da dolma göstəricinin aşağı olmasının müşahidə ediləcəyi gözlənir.

Bu prosesin nəinki Azərbaycanda, bütün dünyada müşahidə edildiyini deyən G.Sağlam hazırda hotellərdə koronavirusla əlaqədar dezinfeksiya tədbirlərinin davam etdiyini, işçilərin müvafiq biliklərlə təlimatlandırıldığını nəzərə çatdırıb.

AHA rəsmisi qeyd edib ki, dünya təcrübəsini nəzərə alaraq, hotellərin istifadə edə bilməsi üçün koronavirusla bağlı məlumatlandırıcı buklet də hazırlayırlar.

G.Sağlam indiyədək hotellərdə xəstəlik hallarının qeydə alınmadığını da bildirib. O əlavə edib ki, mövcud vəziyyətin öyrənilməsi üçün hotelçilərlə görüşlər keçirilir: "Hazırda ümumən dünya turizmində problemlər var. Biz ölkə turizminə dəyən zərəri dəqiqləşdirib sənayeyə dövlət tərəfindən dəstək edilmə məsələsini müzakirə edir və təkliflərimizi hazırlayırıq".

Onun sözlərinə görə, martın 11-dən Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun dəstəyi ilə yaradılmış "Macəra Yaxındadır!" kampaniyasına start götürüb: "Kampaniya Azərbaycan vətəndaşları və Azərbaycanda müvəqqəti, yaxud da daimi yaşamaq icazəsi olan şəxslər üçün ölkədaxili turizm paketlərini bir yerə cəmləyən platformadır. Bu kampaniya hotelçillər tərəfindən çox yaxşı qəbul edildi. Əslində bu, yaranmış vəziyyətdən çıxmaq üçün dünyada tətbiq olunan təcrübənin bir parçasıdır. Çünki Avropa ölkələrində də belə bir təcrübə var".

**AMEA-nın Mərkəzi Elmi Kitabxanası bağlandı**

Mərkəzi Elmi Kitabxana (MEK) koronavirus təhlükəsi ilə əlaqədar oxuculara xidməti müvəqqəti dayandırıb. Məlumata əsasən, AMEA-nın Mərkəzi Elmi Kitabxanası qeyri-müəyyən vaxta qədər oxuculara xidmət göstərməyəcək. Belə ki, kitabxana koronavirus təhlükəsi ilə əlaqədar ölkədə həyata keçirilən tədbirlər çərçivəsində oxuculara xidməti martın 13-ü saat 14:00-dan etibarən müvəqqəti dayandırıb.

**Dünya Səhiyyə Təşkilatı qiymət verdi…**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycanda səfərdə olan missiyası ölkəmizin koronaviursa (COVID-19) qarşı hazırlıq tədbirlərini gücləndirdiyini və bunu alqışladığını açıqlayıb. Vəziyyətin öyrənilməsi məqsədilə ÜST-nin 5 nəfərdən ibarət ekspert qrupu martın 9-dan 13-dək Azərbaycanda səfərdə olub.

ÜST ekspertləri bildiriblər ki, ölkədə koronavirusa yoluxma hallarının olduğu təsdiqlənib.

Hazırda ÜST COVID-19-a cavab planı hazırlamaq üçün milli cavabdeh qurumlarla işləyir.

ÜST qrupu zəruri səhiyyə xidmətləri və iş davamlılığı, milli sınaq laboratoriyalarına nəzarət strategiyası, xəstəxanaların hazırlığı, infeksiyanın qarşısının alınması və bu prosesə nəzarət, zəruri dərman, diaqnostika və sağlamlıq üçün avadanlıqların olmasını təmin etmək, məlumatı paylaşmaq, risqləri minimuma endirmək üçün tövsiyə olunan tədbirlər barədə məsləhət vermək və s. istiqamətlər üzrə iş aparır.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) xəstələri müalicə edən səhiyyə işçiləri və laboratoriya əməkdaşları üçün fərdi mühafizə cihazları alacaq. Bu barədə ÜST-ün martın 9-dan 13-dək Azərbaycanda səfərdə olan missiyasının hesabatında qeyd edilib.

ÜST ekspertləri bildiriblər ki, Azərbaycan ÜST-ün laboratoriya müayinəsi testlərini alan 17 ölkədən biridir. Azərbaycana ilk test partiyası fevral ayında gətirilib. İkinci partiya isə hazırda göndərilməkdədir. Ölkə, həmçinin, ÜST-dən sərhəd bölgəsində COVID-19 şübhəsi olan və ya təsdiq edilən xəstələri müalicə edən səhiyyə işçiləri və labaratoriya əməkdaşları üçün fərdi mühafizə cihazları da qəbul edəcək.

**Xaricdə təhsil alan tələbələrimiz hansı şərtlər daxilində ölkəyə qaytarılır…**

Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının Gənclər Fondu virusun geniş yayıldığı ölkələrdə Xaricdə Təhsil Proqramı çərçivəsində təhsil alan tələbələrin sağlamlıq və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi və zəruri hallarda ölkəmizə qayıtması ilə bağlı təxirəsalınmaz tədbirlər görməkdədir.

Fonddan verilən məlumata görə, bununla yanaşı, yarana biləcək hər hansı təhlükənin qarşısının alınması, eləcə də zəruri tədbirlərin operativ həyata keçirilməsi məqsədilə xaricdə təhsilini davam etdirən proqram iştirakçıları və onların təhsil aldıqları universitetlərlə sıx təmaslar davam etdirilir. Mütəmadi olaraq, tələbələrin ehtiyacları və müvəqqəti yerləşmə ölkəsində və şəhərindəki vəziyyətlə bağlı məlumatlar alınaraq, təhlil olunur, müvafiq ölkələrdə yerləşən diplomatik nümayəndəliklərimizlə əlaqələndirilir.

Zəruri hallarda və tələbələrin istəklərinə uyğun olaraq, onların ölkəmizə qaytarılması təmin olunur.

Xaricdə Təhsil Proqramı çərçivəsində hazırda ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, İspaniya, İsveç, Niderland, Norveç və Rusiya Federasiyasının aparıcı universitetlərində gənclərin təhsil prosesi dövlət tərəfindən dəstəklənir.

Xaricdə təhsilin maliyyələşdirilməsi üzrə müsabiqə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Fərmanına uyğun olaraq, Gənclər Fondu tərəfindən 2019-cu ildə keçirilib. Müsabiqə çərçivəsində 74 ixtisas istiqaməti üzrə ABŞ və Avropanın aparıcı ali təhsil müəssisələrində magistr pilləsi üzrə təhsil almaq hüququ qazanmış gənclər iştirak ediblər.

Gənclər Fondu, Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar həmçinin gənclərin beynəlxalq tədbirlərdə iştirakı və beynəlxalq təşkilatlarda təcrübə proqramlarına da müəyyən məhdudiyyətlər tətbiq etməkdədir.

*(Ardı 4-cü səh.)*

*(Əvvəli 3-cü səh.)*

### İtaliyada təhsil alan tələbə: "Hər yer bağlanıb, Azərbaycana qayıtmağı gözləyirik…"

İtaliyada koronavirusa görə əksər obyektlər bağlanıb. Bu barədə İtaliyanın Roma şəhərindəki Sapienza universitetinin tələbəsi Turanə Hüseyn deyib.

Hazırda Romada olan tələbə xanım bildirir ki, koronavirusa görə Romada tam karantin elan olunub: "Hər yer bağlanıb, bütün mağazalar, kafe-restoranlar, iri ticarət mərkəzləri hamısı qapanıb. Bütün təhsil müəssisələrində dərslər dayandırılıb, əhalinin küçələrə səbəbsiz çıxması qadağan edilib. Hazırda market və aptekdən başqa heç yer işləmir. Dərslər onlayn qaydada keçirilir".

T.Hüseyn bildirib ki, insanlar market və ya aptekə gedərkən bir-birilə məsafəli ünsiyyətdə olurlar: "Aptek və marketlər günün müəyyən saatlarında işləyir. Yəni istədiyimiz vaxt istədiyimiz market və aptekə gedə bilmərik. Ora da növbə ilə buraxırlar. İnsanlar əvvəlcə xüsusi təlimatlandırılır, nə məqsədlə hara getdiyi öyrənilir, bunun üçün təlimat sənədləri, blanklar doldurulduqdan sonra növbəlilik əsasında küçəyə çıxmağa icazə verilir. Market və aptekə gedərkən insanlar arasında məsafə saxlamaq zəruri hesab edilir və xüsusi tapşırılır. İş yerləri tam olaraq dayanıb".

Tələbə xanım bildirib ki, ölkəmizə qayıtmaq üçün Azərbaycanın İtaliyadakı Səfirliyinə müraciət edib: "Müraciət etmişik ki, qayıtmaq istəyirik. Diasporadan bizimlə əlaqə saxlayıb qeydiyyata alıblar. Gözləyirik ki, təxliyə barədə bizə məlumat versinlər".

Qeyd edək ki, İtaliyada koronavirusa yoluxanların sayı 15 113 nəfərə çatıb. Ölənlər isə 1016 nəfərdir. Xəstəlikdən sağalanların sayı 1258 nəfər təşkil edir.

### Azərbaycanda koronavirusa yoluxan 19 nəfərdən üçü sağalıb

Bu günə qədər Azərbaycanda 19 koronavirusa yoluxma faktı qeydə alınıb. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Bakı ofisində keçirilən mətbuat konfansında deyən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) şöbə müdiri Yaqut Qarayevanın sözlərinə görə, xəstələrin 3-ü artıq sağalıb. ÜST-ün Azərbaycana səfər edən missiya rəhbəri Karolina Braun Azərbaycana koronavirusa yoluxma hallarının erkən aşkarlanmasını tövsiyə etdiklərini bildirib.



### İran və İtaliyadan qayıdan dörd azərbaycanlıda koronavirus aşkarlandı

İran və İtaliyadan qayıdan dörd nəfər Azərbaycan vətəndaşında koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumata görə, həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdirilib, hazırda onların səhhəti normaldır, müalicələri ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Bundan əvvəl xüsusi rejimli xəstəxanalaya yerləşdirilmiş 1938-ci il təvəllüdlü Azərbaycan vətəndaşının səhhəti stabil ağır olaraq qalır. Xəstə ciddi nəzarət altında saxlanır və müalicəsi ilə bağlı zəruri tədbirlər görülür.

Koronavirus infeksiyası aşkarlanmış digər şəxslərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirirlir, onların səhhəti ciddi nəzarət altında saxlanır.

### Ölkə ərazisində bəzi sosial izolyasiya tədbirlərinin tətbiqinə qərar verildi

Koronavirus infeksiyası (COVİD-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha da ciddi tədbirlər görməyə sövq edir. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumata görə, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb. Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınmışdır. Həmçinin, dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah 14 mart 2020-ci il saat 00:00-dan etibarən ölkə ərazisində tətbiq olunacaq bəzi sosial izolyasiya tədbirlərini diqqətə çatdırır:

* ölkə üzrə bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınır, artıq təyin olunmuş tədbirlərin tarixi dəyişdirilir;

* ölkə üzrə kinoteatrların, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılır;

* ölkə ərazisində bütün toy məclislərinin keçirilməsi qadağan edilir; (14 və 15 mart 2020-ci il tarixlərinə əvvəlcədən təyin olunan toy mərasimləri istisna olmaqla)

* dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi qadağan olunur;

* restoran və kafelərdə iş rejimi saat 21:00-dək müəyyən edilir və müvafiq dövlət strukturları tərəfindən bu məkanlar üçün açıqlanacaq qaydalara riayət olunması mütləqdir;

* restoran və kafelərdə kütləvi şənliklərin, məclislərin təşkili qadağan edilir;

* saat 21:00-dan sonra fəaliyyət göstərən klublar və barların fəaliyyəti dayandırılır;

* ölkə üzrə fəaliyyət göstərən alış-veriş mərkəzlərinin fəaliyyətinin müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara riayət olunaraq həyata keçirilməsi mütləqdir;

* aptek, ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaqdır;

* ictimai nəqliyyatın fəaliyyəti müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara uyğun həyata keçiriləcək;

* tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarəti qadağan edilir;

* dövlət strukturlarında çalışan bütün şəxslərin və səhiyyə işçilərinin ölkədən kənara səfərləri Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın icazəsi əsasında həyata keçirilə bilər;

* dövlət və özəl sektorda çalışan şəxslərin ən vacib məqamlar istisna olmaqla ezamiyyə səfərlərinə məhdudiyyət tətbiq edilməlidir;

* özəl tibb müəssisələri Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi ilə (TƏBİB) koordinasiya şəraitində çalışmalı, yarana biləcək hər hansı hallar üçün yüksək hazırlıq səviyyəsi təmin edilməlidir;

* qeyd olunan müddətdə dövlət strukturlarının, özəl qurumların, bank və iaşə obyektlərinin və digər qurumların fəaliyyəti, vətəndaş müraciətlərinə baxılması, vətəndaşların qəbulu, daxili görüş və iclasların təşkili üçün xüsusi qaydalar işlənib hazırlanmalıdır;

Koronavirus diaqnozu ilə xüsusi rejimli xəstəxanalarda müalicə alan və karantin qaydalarını pozan şəxslər barəsində cəza tədbirləri tətbiq olunacaq.

Eyni zamanda ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcək.

Vətəndaşlarımızdan və kütləvi informasiya vasitələrindən bütün dünyada yaranmış hazırkı vəziyyətdə maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunur.

Belə ki, hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarları qeyd-şərtsiz icra olunmalıdır.

### Sosial şəbəkələrdə və "WhatsApp"da yayılan şayiələrə inanmayın…

Sosial şəbəkələrdə və "WhatsApp" ani mesajlaşma əlavələri vasitəsilə koronavirus infeksiyasının yayılmasına yol verməmək üçün Bakı şəhərində ərzaq mağazalarının bağlanacağı və onların iş rejiminə ciddi fasilələr tətbiq olunacağı barədə səs yazısı yayılır. Nazirlər Kabineti yanında Operativ Qərargah bildirir ki, hazırda əhalinin sağlamlığının etibarlı qorunması və koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən kompleks tədbirlər çərçivəsində ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaq: "Yayılan iddia şayiə xarakterlidir və cəmiyyətdə süni ajiotaj yaratmaq məqsədi daşıyır. Hazırda aidiyyəti orqanlar tərəfindən bu tipli şayiə yayan şəxslərin aşkarlanması və onların barəsində hüquqi məsuliyyət tədbirləri görülməsi üçün müvafiq iş aparılır".

### Azərbaycanla ÜST arasında Donor Sazişi imzalandı

Martın 13-də Ümumdünya Səhiyyə Təşkilatının Cenevrədəki baş qərargahında "Azərbaycan Respublikası və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) arasında Donor Sazişi" imzalanıb.

Sözügedən donor sazişi dünyada koronavirus epidemiyasının yayılması risqinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə Azərbaycan Respublikası Hökumətinin ÜST-ə könüllü maliyyə yardımının ayrılması barədə 2020-ci il 6 mart tarixli qərarına əsasən imzalanıb.

Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Vaqif Sadıqov və ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesusu tərəfindən imzalanmış donor sazişi Azərbaycan Respublikası Hökuməti tərəfindən ÜST-ün "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutur. Sənədin imzalanma mərasimi zamanı ÜST-ün baş direktoru Azərbaycan Hökuməti tərəfindən verilmiş bu qərarın çox təqdirəlayiq olduğunu vurğulayaraq, ölkəmiz tərəfindən səhiyyə sektoruna, xüsusilə hazırda COVID-19 virusu ilə mübarizəyə yönəlmiş diqqət və qayğının, həyata keçirilən bütün lazımi ehtiyat tədbirlərinin ÜST tərəfindən diqqətlə izlənildiyini və yüksək qiymətləndirildiyini bildirib. ÜST-ün baş direktoru Azərbaycan tərəfindən COVID-19 virusu ilə mübarizə üçün ayrılmış könüllü maliyyə töhfəsinin qlobal həmrəyliyin nümunəvi nümayişi olduğunu diqqətə çatdıraraq, ÜST adından Azərbaycan Hökumətinə verilmiş bu qərara görə dərin minnətdarlığını ifadə edib. ÜST-ün baş direktoru qeyd edib ki, 2018-ci ilin iyul ayında rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilməsi və keçirilmiş bir sıra digər görüşlər ölkəmizin ÜST ilə əməkdaşlığının yüksək səviyyədə olmasının təzahürüdür.

Cavab olaraq, daimi nümayəndə V.Sadıqov Azərbaycan tərəfindən ÜST ilə əməkdaşlığa yüksək önəm verildiyini vurğulayaraq, Azərbaycan Hökumətinin müraciəti əsasında ÜST ekspert qrupunun ölkəmizə hazırda davam edən səfərinə görə minnətdarlığını ifadə edib.

Görüş əsnasında V.Sadıqov Azərbaycanda səhiyyə sahəsində və COVID-19 virusu ilə mübarizədə görülən işlər və həyata keçirilən tədbirlər barədə qarşı tərəfi məlumatlandırıb. Daimi nümayəndə Azərbaycan Respublikası tərəfindən ÜST-ün qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərinin yüksək qiymətləndirildiyini bildirərək, COVID-19 virusu ilə bağlı ÜST-ün tövsiyələrinin Azərbaycan tərəfindən nəzərə alındığını və tətbiq edildiyini nəzərə çatdırıb.

Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycan Respublikasının səhiyyə sahəsində əməkdaşlıq etdiyi əsas beynəlxalq qurumdur. Azərbaycan Respublikasının ÜST ilə əməkdaşlığı təşkilatın baş qərargahı və Kopenhagen şəhərindəki ÜST-ün Avropa üzrə Regional Ofisi vasitəsilə həyata keçirilir. Eyni zamanda, ÜST-ün ölkəmizdə ofisi mövcuddur.

# Ermənilər Prezident Əliyevin xəritələr barədə çıxışını da saxtalaşdırdı - həm yerini, həm də məzmununu...

***Faiq Ələkbərli:** ”O xəritədəki nöqsanlardan ermənilərin sui-istifadə etməsi...”*

**Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən dialoqda siyasi və tarix sahəsindəki savadsızlığı ilə dünya qarşısında biabır olan Paşinyan Azərbaycanı qaralamağın yeni yollarını, üsullarını yerli mediaya diqtə etməkdədir.**



İlham Əliyev tərəfindən erməni Baş nazirinin savadsızlığının bu şəkildə ifşa olunmasını nə özü, nə də tərəfdarları həzm edə bilir. Odur ki, erməni mətbuatı Azərbaycana qarşı qaralama kampaniyasını davam etdirir.

Bu azmış kimi, Prezident İlham Əliyevin Tovuz rayonunda Tarix-diyarşünaslıq muzeyinin açılışında məlum xəritə ilə bağlı fikirlərini, eləcə də bu fikirlərin səsləndirildiyi məkanı ermənilər təhrif edir, saxtalaşdırırlar. Belə ki, Ermənistan parlamentinin "Mənim addımım" fraksiyasını təmsil edən deputatı Tatevik Ayrapetyan qondarma iddialarla çıxış edib. Saxtakarlığa əl atan deputat Azərbaycan Prezidentinin fikirlərini tam saxtalaşdıraraq qeyd edib ki, guya ölkə başçımız qədim xəritədə Sisiyan və Urartu adını görüb və Azərbaycan sözünü tapa bilməyib. Özü də iddia edib ki, guya Prezident İlham Əliyev bu fikri Milli Məclisdəki çıxışında qeyd edib. Əslində isə bu tamamilə yanlışdır və Azərbaycan Prezidentinin iradı tamam başqa bir məsələ ilə, yeni Azərbaycanın Bərdə, Qəbələ, Naxçıvan və digər qədim şəhərlərinin adlarının xəritədə əks olunmaması ilə bağlı idi. Özü də o,bu fikirləri Milli Məclisdə deyil, Tovuzda, Tarix-diyarşünaslıq muzeyinin açılışında bildirib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, erməni deputatın və erməni mediasının Prezident İlham Əliyevin fikirlərini saxtalaşdırması, kontekstindən çıxarması qətiyyən yolverilməzdir. "Ölkə başçısının Tovuz Tarix-diyarşünaslıq muzeyində xəritə ilə bağlı səsləndirdiyi iradlar tamamilə haqlı iradlardır. Xəritədə Qüzey Azərbaycanın şəhərlərinin, coğrafi yer adlarının olmamasına ölkə başçısı belə irad bildirdi. Xəritədə Şərqi Anadolunun və Qərbi Azərbaycanın bir hissəsində yerləşən Urartu göstərilib. Urartu da bizim qədim dövlətlərimizdən biridir. İndiki Ermənistan dövləti də bizim ərazilərimizdə yaradılıb. Ermənilər bunu heç zaman unutmasınlar. O xəritədə Azərbaycan şəhərlərin tam əks olunmaması diqqəti çəkirdi. Söhbət bundan gedir. Bizim xəritədəki nöqsanlardan ermənilərin sui-istifadə etməsi, Prezidentin fikirlərini saxtalaşdırmaqla yanaşı, həm də onun səsləndirildiyi məkanı da təhrif etməsi, əlbəttə, yolverilməzdir. Prezident İlham Əliyevin fikirləri tamamilə saxtalaşdırılıb. Ermənilər hər zaman çalışırlar ki, Azərbaycan tərəfi "günahkar" çıxarıb özlərini haqlı tərəf kimi göstərsinlər".

Bununla belə, F.Ələkbərli hesab edir ki, xəritələri hazırlayan təşkilatlar qədim, orta əsr və sonrakı dövrlərdə Azərbaycan ərazisində mövcud olan bütün dövlətlərin adlarını dəqiqliklə qeyd etməlidirlər. Bunun çox həssas məsələ olduğunu deyən F.Ələkbərli bildirdi ki, Kuti, Manna, Midiya, Albaniya və digər qədim dövlətlər kimi, Urartu da bizə aiddir.

Bu gün haylar Urartunu mənimsəməyə çalışırlar. "Bu da, əlbəttə, saxtakarlıqdır. Təəssüf doğuran hal odur ki, kitablar, xəritələr hazırlanarkən bu işi iş bilənə tapşırmırlar. Halbuki, bu işləri mütəxəssislər görməlidirlər. Tarix kitablarında da, xəritələrdə də ciddi nöqsanlar var, onların hansı ideologiyanın təsiri altında bunu hazırladıqları məlum deyil. Tarix dərsliklərini və xəritələri hazırlayanlar Prezidentin iradından ciddi nəticə çıxarmalıdırlar" - deyə F.Ələkbərli vurğuladı.

***İradə SARIYEVA***

# Koronavirusla mübarizə dövrünün uzanması Qarabağ sülh prosesinə hansı təsirləri göstərəcək...

***Elşən Manafov:** ”Sözügedən virusla mübarizənin uzanması münaqişənin həllinə mənfi təsir edir”*

**Azərbaycanın bütün sülhsevər səylərinə baxmayaraq, Ermənistan destruktiv siyasəti ilə Dağlıq Qarabağ münaqişəsinin mərhələli şəkildə tənzimlənməsini hər vəchlə əngəlləyir. Siyasi və hərbi təxribatlar vasitəsilə danışıqlar prosesini pozmağa çalışır və Azərbaycan ərazilərinin işğalına əsaslanan mövcud status-kvonu davam etdirməklə, müharibə məqsədlərinə nail olmağı düşünür.**



İşğalçı ölkə münaqişənin sülh yolu ilə həll edilməməsi və mümkün qədər uzanması üçün bütün təxribatlara əl atır. Son vaxtlar ermənilərin cəbhədə mütəmadi olaraq təxribatlara əl atması deyilənlərə əyani sübutdur. Beynəlxalq hüququn norma və prinsipləri, BMT TŞ-nin məlum qətnamələri və Helsinki Yekun Aktının prinsipləri əsasında münaqişənin mərhələli şəkildə həlli beynəlxalq birlik tərəfindən dəstəklənir. Bu, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, Azərbaycanın beynəlxalq sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin təmin olunmasıdır. Bu yanaşma tərəflər arasında münasibətlərin normal axara düşməsinə və sülhə nail olunmasına imkan verən əsas çərçivədir. Lakin işğalçı Ermənistan tərəfi illərdir işğalçı siyasətini həyasızcasına davam etdirməkdədir.

O da məlumdur ki, Çində 2019-cu ilin sonlarında başlayan koronavirus xəstəliyinin son növü həyatlara son qoymağa davam edir və bütün dünyada sürətlə yayılır. Xəstəlik halları Çindən başqa, Cənubi Koreya, Tayvan, Yaponiya, Sinqapur, Tailand, İran, İtaliya, ABŞ və digər ölkələrdə aşkarlanıb. Bu səbəbdən dünyanın bütün diqqəti koronavirusla mübarizə tədbirləri üzərində fokuslanıb. Virusun yayılmasının qarşısını almaq üçün müxtəlif səylər göstərilir. Heç şübhəsiz ki, bütün bunlar bir sıra münaqişələrin, o cümlədən, Qarabağ münaqişəsinin həllinə olan diqqəti azaldır. İstər-istəməz, münaqişənin həllini arxa plana keçirir. Bu baxımdan maraqlıdır, ekspertlər bütün bunları necə dəyərləndirirlər? Koronavirusla mübarizə dövrünün uzanması Qarabağ sülh prosesinə hansı təsirləri göstərəcək?

*”...hərbi əməliyyatların başlanma risqini artırır”*

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, virusla mübarizənin uzanması münaqişənin həllinə mənfi təsir edir: "Məsələ ondadır ki, bütün dünya üçün qlobal problem və mahiyyət kəsb edən koronavirus təkcə tibbi baxımdan deyil, sosial-iqtisadi, siyasi və geosiyasi virus kontekstində artıq qəbul edilir. Bu anlamda virusun yayılma təhlükəsinin böyük olması səbəbindən dövlət başçıları xarici səfərləri təxirə salırlar. Kütləvi tədbirlərin keçirilməsinə məhdudiyyətlər qoyulur. Hətta olimpiada və futbol çempionatlarının keçirilməsi ilə bağlı məsələlərə yenidən baxıla bilər. Bu kimi proseslər, təbii ki, Qarabağ münaqişəsinin həllinin sürətləndirilməsinə, konfliktə diqqətin yönəldilməsinə mənfi təsir edir. Bundan beynəlxalq qurumlar bir bəhanə kimi də istifadə edə bilər. Çünki ATƏT-in Minsk Qrupu tərəfindən münaqişənin həlli ilə bağlı ciddi addımlar atılacaqsa, prinsip etibarilə, koronovirusla mübarizə prosesi buna mənfi təsir etməməlidir. Çünki bu təşəbbüslər, ən azından, prosesin hərbi müstəviyə keçməsinin qarşısını ala bilər. Nəzərə almaq lazımdır ki, danışıqların dondurulması müharibə risqini artırır. Ona görə də koronavirusla mübarizə prosesi Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara təsir etməməlidir. Bunun danışıqlara təsiri hərbi əməliyyatların başlanma risqini artırır".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən koronavirus infeksiyasının (COVİD-19) qlobal pandemiya elan olunduğunu nəzərə alaraq, Azərbaycan ərazisində virusun yayılmasının qarşısını almaq məqsədilə "ASAN Viza" elektron portalı vasitəsilə 45 gün müddətinə vizaların rəsmiləşdirilməsi dayandırılıb.**




# Virusa qarşı Operativ Azərbaycan qərargahının ən yeni zəruri tədbirləri - kimin xoşuna gəlsə də, gəlməsə də...

## *Rəsul Cahangirli: "Ölkədə bir sıra məhdudlaşdırıcı xarakterli qərarların qəbul olunması müsbət əhəmiyyətə malikdir"*

Azərbaycana səfər etmək istəyən xarici ölkə vətəndaşlarının viza rəsmiləşdirilməsi üçün ölkəmizin müvafiq səfirlik və baş konsulluqlarına müraciət etmələri xahiş olunur. Bu barədə Nazirlər Kabinetinin yanında Operativ qərargahdan bildirilib.

Verilən məlumatda qeyd olunub ki, Azərbaycan Respublikasının səfirlik və baş konsulluqlarının konsulluq xidməti xüsusi rejimdə fəaliyyət göstərəcək: "ÜST-nin təqdim etdiyi siyahıya əsasən, xüsusilə COVİD-19 virusunun geniş yayıldığı ölkələrin vətəndaşlarından viza rəsmiləşdirilməsinə müraciət edərkən COVİD-19 testindən keçmələri barədə tibbi arayış da tələb olunacaq. Bu şərtlər son 14 gün ərzində həmin ölkələrdə olmuş digər əcnəbi vətəndaşlara da şamil olunacaq. Azərbaycan vətəndaşlarının yaxın iki ay müddətinə xüsusi zərurət olmadığı təqdirdə xarici ölkələrə səfərlərdən çəkinmələri ciddi şəkildə tövsiyə olunur".

Onu da qeyd edək ki, Nazirlər Kabinetinin yanında Operativ qərargah koronavirusla mübarizə ilə bağlı bir sıra qərarlar qəbul edib. Azərbaycan və İran arasında sərhədin müvəqqəti bağlanması barədə fevralın 29-da qərar qəbul edib. Martın 12-də verilən qərarara görə, Azərbaycan və İran sərhədi daha iki həftə bağlı qalacaq. Qərar ÜST tərəfindən COVİD-19 koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq verilib. Digər tərəfdən, koronavirus infeksiyasının aşkarlanması üçün karantin 14-29 gün müddətinə müəyyən edilib. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müvafiq xəstəxanalar ayrılıb və karantin zonaları yaradılıb. Çin, Almaniya və digər ölkələrlə aparılan danışıqlar nəticəsində lazımi avadanlıqların, preparatların, mütəxəssislərin Azərbaycana gətirilməsi üçün müvafiq razılaşma əldə olunub.

*"Belə qərarlar koronavirusla bağlı potensial risqlərin önlənməsində önəmli rol oynayacaq"*

Bununla yanaşı, Operativ qərargah təhsil müəssisələrində tədrisin martın 27-dək dayandırılması ilə bağlı qərar verib. İctimai yerlərdə mütəmadi olaraq dezinfeksiya işləri aparılır və s.

Bütün bu görülən tədbirlərin əhəmiyyətini ekspertlər necə necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Nazirlər Kabinetinin yanında Operativ qərargahın gördüyü bu kimi tədbirlər zəruri əhəmiyyət kəsb edir: "Nəzərə almaq lazımdır ki, koronavirus dünya miqyasında geniş problemə çevrilib. Bir sıra dövlətlər bunun fəsadlarını azaltmaq üçün müxtlif tədbirlər görürlər. Kütləvi tətbirlər, idman yarışları təxirə salınır. Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, burada bir sıra qabaqlayıcı tədbirlərin görülməsi zəruri idi. Nəzərə almaq lazımdır ki, Azərbaycan coğrafi baxımdan Qərblə Şərqi birləşdirən körpüdür. Azərbaycan mühüm tranzit rola malikdir. O baxımdan ölkədə bir sıra məhdudlaşdırıcı xarakterli qərarların qəbul olunması müsbət əhəmiyyətə malikdir. Belə qərarlar koronavirusla bağlı potensial risqlərin önlənməsində önəmli rol oynayacaq. Ona görə də bu, bəzi yerli və xarici vətəndaşların rahatlığı üçün müəyyən çətinliklər yaratsa da, bunu etmək lazım idi".

***Vidadi ORDAHALLI***

**Qarşıdan xalqımızın qədim və milli bayramı olan Novruz bayramı gəlir. Artıq Novruzaqədərki çərşənbələrin üçünü arxada qoymuşuq, üzü İlaxır çərşənbəyə gedirik. Həm İlaxır çərşənbənin, həm də Novruz bayramının özünəməxsus adət-ənənələri, inancları var ki, biz bunları yerinə yetiririk.**



# Koronavirus təhlükəsinə görə Novruzun hansı mərasim qaydalarından könüllü imtina etməliyik...

## *Ataş Əhmədli: "...papaqatma adətinin aradan qaldırılması vacibdir"*

Məlum olduğu kimi, ölkəmizdə koronavirusun yayılmasının qarşısının alınması məqsədilə dövlət tərəfindən xüsusi tədbirlər həyata keçirilib, o cümlədən də respublikamızda Novruz bayramı ilə bağlı kütləvi tədbirlərin keçirilməsinin qadağan olunması ilə bağlı qərar qəbul edilib. Bunun da məqsədi insanların kütləvi toplantılardan kənar olmasıdır. Əlbəttə, kütləvi yerlərdə virusun yayılma risqi daha yüksəkdir və dövlət artıq bununla bağlı qabaqlayıcı təhlükəsizlik tədbirləri görüb.

Qeyd etdiyimiz kimi, Novruz bayramında icra etdiyimiz bir sıra adətlər var və onların da bir çoxu ünsiyyətlə, paylaşmaqla bağlıdır. O da məlumdur ki, Novruz bayramında qonşular, qohumlar bir-birinə bişmişlərdən, yaxud digər nemətlərdən pay göndərir, bayramlaşır, uşaqlar evlərə papaq atır, qızlar bir yerə yığışıb müxtəlif ayinlər icra edir, qulaq falına çıxır, çeşmə üstünə gedirlər. Əlbəttə, Novruzun bu maraqlı adətləri əsrlərdir qorunub saxlanır.

Onu da qeyd edək ki, Novruz bayramı ilə əlaqədar müxtəlif şirkətlər hədiyyələr hazırlayaraq satışa çıxarırlar. Rənglənmiş kağızlardan hazırlanan hədiyyə qutusunun içindəki şirniyyatların özü bir təhlükə mənbəyi ola bilər. Bilirik ki, həmin hədiyyələr adətən kütləvi yerlərdə, uşaq əyləncə mərkəzlərində, metroların qarşısında, səyyar ticarət yerlərində satılır. Hətta kiçik və iri mağazalarda da bu hədiyyələr satılır. Hesab edirik ki, bu hədiyyələrin satışı da məhdudlaşdırılmalıdır. Çünki heç kəs təminat verə biməz ki, o hədiyyələrin qablaşdırılmasında iştirak edənlər arasında da virus daşıyıcısı olmasın.

Koronavirus təhlükəsinin yaxın olduğu bir zamanda biz Novruz bayramının hansı adətlərini müvəqqəti olaraq təxirə salmalıyıq ki, yoluxma hallarının qarşısını ala bilək?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklorşünaslıq İnstitutunun mərasim folkloru şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ataş Əhmədli "Bakı-Xəbər"ə bildirdi ki, Novruz adətləri əsasən bölgələrdə daha yüksək səviyyədə icra olunur. "Kütləvi tədbirlərin, o cümlədən də Novruz şənliklərinin təxirə salınması istiqamətində dövlətin verdiyi qərarı biz də dəstəkləyirik. Mənə elə gəlir ki, qohumların bir-birilə bayramlaşmağa getməsi, bir-birinə pay verməsi bu məsələdə elə də təhlükə törətməz. Amma kütləvi tədbirlər zamanı bu virusun yayılma risqi istisna deyil. Bizdə Novruzun ənənələrindən biri papaqatma mərasimidir ki, bu, əvvəllər tamam başqa vasitələrlə, məsələn, şal sallamaqla, torba atmaqla müşayiət olunub. Mən elə əvvəldən papaqatmanın əleyhinəyəm, bu adət əvvəlki vasitələrlə icra olunmalıdır. Uşaqlar evlərə papaq atır və sonra da o papaqlara qoyulan şirniyyatları yeyirlər, bu da sözsüz ki, xəstəlik risqini artırır. Ən azından, bu, gigiyenik cəhətdən doğru deyil. Həm də mənəvi cəhətdən, papağa münasibət baxımından qəbulolunmazdır. Müasir Novruz adətlərinə daxil olan papaqatma adətinin aradan qaldırılması vacibdir. Papaq yerə düşür, toz-torpağa bulaşır, sonra da uşaq götürüb həmin papağı başına qoyur".

*"Uşaqlar evlərə papaq atır və sonra da o papaqlara qoyulan şirniyyatları yeyirlər, bu da sözsüz ki, xəstəlik risqini artırır"*

A.Əhmədli hesab edir ki, yerli şirkətlər xüsusi Novruz torbaları istehsal etməli və uşaqlar da evlərə həmin torbanı atmalıdırlar. Novruzun digər adətlərinə gəlincə, A.Əhmətli onların müvəqqəti olaraq təxirə salınmasına tərəfdar deyil. Onun fikrincə, bu adətlər əsasən kənd yerlərində lokal şəkildə qeyd edildiyi üçün virusun yayılması ehtimalını artırmır. Onun dediyinə görə, qızlar axar su üstünə gedir, qulaq falına çıxır və bu da çox dar çərçivədə baş verir.

A.Əhmədlinin fikrincə, Novruz bayramında ənənəvi olaraq həyata keçirilən təmizləmə işləri də koronavirusla mübarizəyə böyük təkan verəcək. Novruz bayramı ərəfəsində evlərin, həyət-bacanın tamamilə təmizləndiyini, yataq vasitələrinin, xalça-palazın belə çölə çıxarılıb havaya verildiyini deyən A.Əhmədlinin bildirdiyinə görə, Novruz adətlərinə daxil olan bu proses koronavirusla mübarizənin üsullarından biridir. Bununla belə, ekspert hesab edir ki, əhali dövlətin aidiyyəti qurumlarının verdiyi tövsiyələrə əməl etməli və kütləvi mərasimlərə qatılmamalıdır.

***İradə SARIYEVA***

**Erməni KİV-i erməni lobbisinin ABŞ-da həyata keçirmək istədiyi növbəti plandan yazıb. Bildirilir ki, Amerikadakı Erməni Milli Komitəsinin (ANCA) 2021-ci ildə Ermənistana və Dağlıq Qarabağa artan yardımı dəstəkləyən məktubunu ABŞ-ın 23 ştatından 75 konqresmen imzalayıb. Məktub ABŞ-ın Dövlət və Xarici Əməliyyatlar üzrə Alt Komitəsinin nümayəndələrinə göndərilib.**

# 75 ABŞ konqresmeninin ermənipərəst demarşı - Ermənistana və "Artsaxa" 100 və 1,5 milyon yardım, qondarma "DQR"in rəhbərlərinin səfərinə qadağa götürülsün...




## *Elşən Həsənov: "ABŞ-ın Minsk Qrupunun həmsədri olması bu yardımla ziddiyyət təşkil edir"*

ANCA-nın icraçı direktoru Aram Hambaryanın sözlərinə görə, bu məktub gələcəyə yönəlmiş yardım paketini təqdim etmək məqsədi daşıyır. Məktubda aşağıdakı istəklər var: "Dağlıq Qarabağda minalardan təmizlənmə və mina qurbanları, fiziki və idrak qüsurlu insanlar üçün regional reabilitasiya xidmətlərinin etibarlı maliyyələşdirilməsi üçün 1,5 milyon dollar ayrılsın.

Dövlət Departamenti və USAİD vasitəsilə iqtisadiyyat, idarəetmə, qanunun aliliyi və təhlükəsizliyi sahəsində yardım üçün Ermənistana 100 milyon dollar ayrılsın.

Dövlət Departamenti və USAİD tərəfindən ABŞ-a səfər etmək üçün Dağlıq Qarabağ hökumətinin nümayəndələri ilə əlaqə və ya əlaqə ilə bağlı hər hansı rəsmi və ya qeyri-rəsmi məhdudiyyətlərin aradan qaldırılması.

Bakının Ermənistan və Artsaxa qarşı bütün təcavüzkar hərəkətlərini dayandırdığı təsdiqlənənə qədər ABŞ-ın Azərbaycana yardımının dayandırılması".

Göründüyü kimi, ABŞ-dakı erməni lobbisi artıq ciddi bir işin ardınca gedir. Onlar həm Azərbaycana olan yardımın dayandırılmasını tələb edirlər, eyni zamanda, qondarma qurum rəsmilərinin ABŞ-a sərbəst gediş-gəlişini təmin etməyə, həm "DQR"ə, həm də Ermənistana maliyyə transı ayırmağa çalışırlar. Bunların qarşısını almaq üçün nələri etməliyik?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ Konqresi 1998-ci ildə qəbul etdiyi qərara əsasən, 1999-cu ildən etibarən Dağlıq Qarabağ rejiminə birbaşa maliyyə yardımı ayıran yeganə dövlətdir: "Humanitar yardım adıyla verilən bu maliyyə vəsaiti maraqlıdır ki, Cənubi Qafqazdakı digər tanınmayan "dövlətlərə" verilmir. ABŞ tərəfindən 1998-2000-ci illərdə qondarma "DQR"ə hər il 2,5 milyon dollar, 2001-2006-cı illərdə hər il 3 milyon dollar, 2006-cı ildə 5 milyon dollar, 2007 və 2008-ci illərdə hər il 6 milyon dollar, 2009 və 2010-cu illərdə hər il 8 milyon dollar, 2011-ci ildə 10 milyon dollar maliyyə yardımı edilib. 2012-ci ildə isə ABŞ qondarma "DQR"ə maliyyə vasaiti ayırmayıb.

Göründüyü kimi, hələ 2000-ci illərin əvvəlindən başlayaraq bu yardımın ayrılması dinamikasında artım olub. Xüsusilə Azərbaycan, Ermənistan və separatçı "Dağlıq Qarabağ Respublikası" ilə bağlı Konqresdəki təcrübə göstərir ki, Senatın qanun layihəsində Prezidentin verdiyi təkliflər əks olunur, Nümayəndələr Palatasında isə erməni lobbisinin fəaliyyəti nəticəsində Azərbaycana yardım azaldılır, layihəyə Dağlıq Qarabağa humanitar yardıma dair maddə əlavə olunur, Ermənistana olan yardım isə azaldılır, sonradan hər iki palata ortaq məxrəcə gəlir, lakin "DQR"ə yardım cüzi azalma ilə yekun layihədə saxlanır.

ABŞ-da büdcə layihəsi Prezident tərəfindən Konqresə göndərildikdən sonra əvvəlcə Nümayəndələr Palatasının, sonra Senatın komitələrində və ümumi iclasında müzakirə olunaraq qəbul edilir, hər iki variantda olan fərqli məqamlar isə hər iki palatanın müvafiq sahələrə baxan komitələri tərəfindən razılaşdırma konfransında müzakirə olunaraq razılaşdırıldıqdan sonra Konqresin yekun layihəsi Prezidentin imzasına təqdim olunur.

Qondarma "DQR"ə yardımı humanitar niyyətlərlə əsaslandıran konqresmenlər əsassız arqumentlər irəli sürürlər. Razılaşdırma konfransının hesabatında Azərbaycanın müharibə ritorikasının artmasından narahatlıq ifadə olunur, ABŞ administrasiyasının Azərbaycana ayrılmış yardımın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə mənfi təsir göstərməyəcəyini və Ermənistana qarşı yönəlməyəcəyini təsdiq etməli olduğu qeyd edilir. Biz buna kəskin etiraz etməliyik. Çünki belə mövqe ABŞ-ın beynəlxalq arenada oynadığı rolu və beynəlxalq hüququn aliliyinə verdiyi əhəmiyyəti azaldır. Dövlətlərin ərazi bütövlüyünə hörmət ABŞ-ın xarici siyasətində mühüm ünsürdür.

ABŞ-ın Minsk Qrupunun həmsədri olması bu yardımla ziddiyyət təşkil edir. Danışıqlar prosesində iştirak edən və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ABŞ-ın separatçı quruma maliyyə yardımı ayırması onun bütün fəaliyyətinin mahiyyətinə əksdir, onun obyektivliyini və tərəfsizliyini şübhə altına alır".

***Məhəmmədəli QƏRİBLİ***

**Ana Vətən Partiyasında maraqlı proseslər yaşanır. Parlament seçkilərindən əvvəl bu partiyaya cəmiyyətdə tanınan bir neçə şəxsin üzvlüyü reallaşdı. Bu xüsusda sabiq maliyyə naziri Fikrət Yusifovun, jurnalist Jalə Mütəllimovanın, QHT rəhbəri Arzuman Abdulkərimovun adını çəkə bilərik.**

# Seçkidən bir-iki ay əvvəl tələsik dolub dərhal da boşalan partiyalar - buna ən çox Ana Vətən məruz qaldı...




Maraqlıdır ki, seçkilərdən dərhəl sonra böyük səs-küylə AVP-yə üzvlüyü reallaşan şəxslərin ikisi ard-arda partiyadan istefa verdiklərini bəyan etdilər. Adları çəkilən 3 nəfərdən yalnız Arzuman Abdulkərimov partiyadan istefa verməyib.

Ana Vətən Partiyası sədrinin müşaviri Jalə Mütəllimova partiya sıralarından istefa vermәsini belə əsaslandırmışdı: "Şəxsi təşəbbüsümlə Ana Vətən Partiyası ilə yollarımız ayrıldı. Hər kəsə sayğılar, sevgilər və böyük uğurlar diləyirəm. Qısamüddətli əməkdaşlıq mənə çox böyük təcrübə qazandırdı. Əminəm ki, bundan sonrakı dönəmdə qazandığım təcrübədən bəhrələnəcəyəm...". Ancaq partiyanın sədri Fəzail Ağamalı xanım jurnalistin partiyadan niyə istefa verməsinə aydınlıq gətirib. F.Ağamalı qeyd edib ki, J.Mütəllimova növbədənkənar parlament seçkilərində AVP-dən namizəd olub: "Onun seçki prosesinə yanaşma metodu partiyanın təməl prinsiplərinə uyğun gəlmədi. Bizim danışıqlarımız oldu. Bildirdim ki, bu cür yanaşmalar təməl prinsiplərimizə ziddir. Dedim ki, sakit şəkildə, Azərbaycan qanunlarına söykənərək seçki prosesində iştirak edin. O da bildirdi ki, bəzi şeylər var ki, ictimailəşdirməliyəm. Dedim, o zaman sizin partiyada olmağınız qüvvəsini itirir, seçiminizi edin. O da ərizə yazdı və getdi. Jalə Mütəllimovanın Ana Vətən Partiyasına gəlməsi və getməsi partiyaya nə üstünlük, nə itki verdi...".

Bunun ardınca sabiq maliyyə naziri, professor Fikrət Yusifov Ana Vətən Partiyasından istefa verdiyini bildirib. Ancaq J.Mütəllimovadan fərqli olaraq, F.Yusifov istefası barədə ətraflı məlumat verib. O, istefa səbəbini aşağıdakı kimi açıqlayıb: "Bir müddət öncə mən Ana Vətən Partiyasına üzv olduğumu bəyan edəndə cəmiyyətdə ciddi qınaqlarla üzləşdim. Məni yaxından tanıyanlar yaxşı bilirlər ki, həmişə səmimiyəm. Ona görə bu məsələdə də səmimi olaraq etiraf edirəm ki, partiyaya gələndən sonra burada, praktik olaraq, heç bir ciddi resursun olmadığını görüb, belə bir partiyanın sıralarını dərhal tərk etmək qərarı verdim. Ancaq bunu həmən etmədim - istəmədim ki, partiyanın gözlənilən seçki uğursuzluğunda mənim adım hər hansı bir formada hallansın".

F.Yusifov söyləyib ki, partiya tərəfindən deputatlığa namizədliyinin Sumqayıt 41 saylı seçki dairəsindən irəli sürülməsindən də imtina edib: "Bir sözlə, namizədliyin qeydiyyata alınması üçün əsas olacaq imza vərəqlərini belə götürmədən geri çəkildim. Mən Xalq Cəbhəsi hakimiyyəti dövründə ölkənin Maliyyə nazirinin birinci müavini, Heydər Əliyevin hakimiyyəti dövründə isə Maliyyə naziri vəzifəsində 6 ilə yaxın çalışsam da, nə Xalq Cəbhəsinə, nə də Yeni Azərbaycan Partiyasına üzv olmamışdım. Şəxsi münasibətlərdən istifadə edərək mənə Ana Vətən Partiyasına üzv olmağı təklif edən partiya rəhbərliyi bunu etməzdən öncə öz siyasi məsuliyyətini dərk etsəydi, bu daha düzgün olardı".

Partiyada baş verən son istefalarla bağlı Fəzail Ağamalının fikirlərini öyrəndik. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Fikrət Yusifovun belə bir açıqlama ilə çıxış etməsindən dərin təəssüf keçirir: "Açığı, bunu ondan gözləmirdim. O, hələ ötən ilin avqust ayında mənimlə görüşündə qarşıdan gələn parlament seçkilərində iştirak etmək niyyətini ortaya qoydu. Bunun üçün də mənə dedi ki, ehtiyac olarsa, sizin partiyanın xətti ilə parlament seçkilərində iştirak etmək istəyərdim. Ona söylədim ki, bu barədə fikirləşərik. Bəlli oldu ki, Fikrət Yusifovun partiyaya qoşulmaqda niyyəti yalnız deputat olmaq idi. Mən də ona reallığı dedim və öz gücünü, imkanlarını ölçüb, qərar verdi ki, iştirak etməsin. Buna nə gərək var? Partiyaya biri gəlir, biri gedir. Gələn ərizəni yazıb gəlir, gedəndə də ərizəsini yazıb gedir. Bunların heç biri mətbuata çıxmır".

Fəzail Ağamalının sözlərinə görə, bu barədə onların arasında ötən ilin oktyabr ayında söhbət olub: "Dedim ki, qarşıdan gələn parlament seçkilərində çoxsaylı namizədlə iştirak etmək niyyətindəyik. Bildirdim ki, sənin də iştirakını istərdik, necə ki, bu barədə istəyini vaxtilə mənə demişdin. O, bununla razılaşdı. Partiyanın üzvlüyünə ərizə yazdı, iclaslarda iştirak etdi. Eyni zamanda, partiyanın Ali Məclisinin 120 nəfərlik yığıncağına, həmçinin də namizədlərin toplantısına qatıldı. Bütün bunların fonunda partiyanın kifayət qədər resursunun olduğunu gördü. Özü etiraf etdi ki, indiyə qədər bilməmişəm ki, sizin partiyanın bu dərəcədə resursları var. İndi də deyir ki, partiyanın resursu yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Bakı-Minsk əlaqələrində tərəqqi İrəvanı şoka salan həddə çatır - daha bir fakt...

**Bu günlərdə Ukraynanın Odessa vilayətinin "Cənub" neft terminalında Azərbaycandan tankerlə gətirilmiş Belarusa çatacaq neft "Ukrtransnafta" dövlət neft nəqli şirkəti tərəfindən qəbul olunub. Şirkətin bununla bağlı yaydığı məlumatda qeyd edilir:**

"90 min ton həcmində "Azeri Light" markalı neft daşıyan ilk tankerin Yujne dəniz neft terminalında qəbuluna başlanılıb. Həmin neft daha sonra Odessa-Brodı neft kəməri və "Drujba" kəməri xətlərinin biri ilə Belarus neftayırma müəssisələrinə nəql olunacaq".

Qeyd edək ki, Belarusa neft nəqli ilə bağlı xidmətlər "Ukrtransnafta" ilə "Belarusian Oil Company"nin törəmə şirkəti olan Böyük Britaniyanın "BNK Limited" şirkəti arasındakı müqaviləyə əsasən göstərilir. 2020-ci ilin sonunadək qüvvədə olan bu müqavilə Odessa-Brodı kəməri ilə və "Drujba" kəməri ilə Belarusun Mozir şəhərinə nəqlini nəzərdə tutur. Bundan əvvəl Belarusun "Belneftxim" dövlət şirkəti iki tankerlə 160 min ton neftin tədarükü haqqında SOCAR-la müqavilə imzaladıqlarını açıqlamışdı. Belarusdan olan ekspert Viktor Şadurski yaranmış durumda Azərbaycandan neft tədarükünün Belarus üçün çox əhəmiyyətli olduğunu bildirir: "Təchizatın diversifikasiyası və çoxvektorlu siyasət inkişafın açarıdır. İmtiyazlı tərəfdaşla danışıqlar apararkən həmişə seçim olmalıdır. Belarusun Azərbaycanla münasibətləri, o cümlədən neft sektorunda, həmişə əhəmiyyətli olub. Aydındır ki, Azərbaycandan alınan neft Rusiyadan baha başa gələcək. Ancaq bu, alternativ variantdır. Yeri gəlmişkən, Bakının Minskə təcili kredit verməsi ilə bağlı təcrübəmiz var. Həmçinin, əvvəllər neftin tədarükü üçün mübadilə sazişləri olub. Bu, Belarusa kömək edib. Buna görə də Azərbaycanla münasibətləri çox yüksək qiymətləndiririk. Bizim Azərbaycanla ortaq maraqlarımız çoxdur. Başqa cür ola da bilməz. Həmişə ortaq maraqları axtarmaq lazımdır".

Qeyd edək ki, SOCAR mart ayında Belarusa təqribən 250 min ton neft göndərəcək. Belarusun "Belneftexim" konserninin təmsilçisi Aleksandr Tasınkı Azərbaycanın ölkəsinə neft satışının mühüm əhəmiyyət kəsb etdiyini bildirir: "SOCAR-dan tədarükün həcmi mart ayında artıb, üçüncü tanker də olacaq. Göndəriləcək neftin ümumi həcmi təqribən 250 min tondur. Bu, zavodlarımız üçün planlaşdırılan tankerlərin son həddi deyil. Biz hazırda alternativ tədarükçülərlə işləyirik, şaxələndirmə davam edir. Kəmərlə çatdırılacaq neft indi treyder bazarına çıxarılıb. Təcrübə göstərir ki, bu gün treyderlərlə işləmək mümkündür. Bu, kifayət qədər çevik və operativ sistemdir". Tədarükün şimal istiqamətinə, yəni Baltik limanlarına gəlincə, "Belneftxim"in nümayəndəsi qeyd edib ki, mart ayında iki tanker son hədd deyil, bu logistika sistemi ilə xammal tədarükünü davam etdirmək planlaşdırılır. Növbəti tankerlər, ehtimal ki, apreldə gələcək.

Aleksandr Tasınkı vurğulayır ki, Belarus həmişə çətin vaxtlarda Azərbaycana güvənib və Bakı da bu güvəni doğruldub. Hazırda Belarus ölkəmizdən daha böyük həcmdə neft alışında da olduqca maraqlıdır. Qeyd edək ki, bundan öncə "Belneftexim" konserninin rəhbəri Andrey Rıbakov bildirib ki, SOCAR 2020-ci il ərzində Belarusa ümumiyyətlə 1 milyon tona qədər neft tədarük edə bilər. Onun sözlərinə görə, həcmlər ildən-ilə artacaq. Həcmlər hər ay iqtisadi və maddi-texniki komponentlər əsasında müəyyənləşdiriləcək. Azərbaycan neftinin Belarusa tədarükü isə davamlı olacaq. Belarusun baş naziri Sergey Rumas isə vurğulayır ki, Minsk Azərbaycan neftinin tədarükü ilə bağlı uzunmüddətli müqavilədə maraqlıdır: "İnanıram ki, SOCAR belə əməkdaşlıqda maraqlı olacaq. Belarus və SOCAR uzun müddət neft bazarında çalışıb. 2011 və 2016-cı illərdə Belarus SOCAR-dan neft alıb, Azərbaycan tərəfi isə bu ölkədən neft məhsulları alıb. Sirr deyil ki, Belarus neft tədarükünün şaxələndirilməsi üzərində işləyir, bundan əvvəl nefti bütünlüklə Rusiya Federasiyasından alırdıq. Əlbəttə ki, alternativ neft tədarükü olmadan bu gün Belarusun enerji təhlükəsizliyindən danışmaq olmaz. Buna görə də bu sahədə uzunmüddətli müqavilələr bağlaya biləcəyiniz etibarlı tərəfdaşlar axtarmaq istəyirik. Təcrübə göstərir ki, SOCAR belə etibarlı tərəfdaş ola bilər".



Bütün bunlar bir daha göstərir ki, Belarus Azərbaycanla əməkdaşlıqda xüsusi maraqlı tərəf kimi çıxış edir. Hadisələrin bu səpkidə inkişafından narahat olan əsas tərəflərdən biri isə Ermənistandır. Bu ölkənin "İrates" qəzeti yazır ki, Bakı və Minsk arasında dinamik inkişaf edən əməkdaşlıq İrəvan üçün həyəcan siqnalı olmalıdır: "Azərbaycan daim Belarusa dəstək ola biləcəyini göstərir. Təbii ki, bu vəziyyətdə Minsk Bakıya daha çox rəğbət bəsləyir. Elə buna görədir ki, Ermənistan Belarusla bir çox qurumlarda təmsil olunsa da, sonuncu üçün Azərbaycan daha vacib tərəfdaşdır. Burada təhdid yaradan məqamlardan biri budur ki, belə vəziyyətdə, Ermənistanın narazılığına baxmayaraq, Belarus Azərbaycana müasir silahlar verir. Artıq məşhur "Polonez" raketləri ilə bağlı bu hal özünü göstərib. O vaxt erməni tərəfinin narazılığı heç bir nəticə vermədi. İndi neft sövdələşməsinin dərinləşməsi fonunda isə Minsk ümumiyyətlə İrəvanı dinləməyəcək. Özü də unutmaq lazım deyil ki, Belarus yaxın tezlikdə daha sərrast "Polonez-2" raketlərini istismara verməyə hazırlaşır. Bu silahların da Azərbaycan ordusunda peyda olduğunu görəndə təəccüblənməyə dəyməz".

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Azərbaycan Ermənistanın KTMT ümidlərinin üzərindən yeni xətt çəkdi - atəşkəs pozuntusunu təmas xəttindən dövlət sərhədinə keçirməyin əsas məqsədi...

**Son dövrlərdə Azərbaycan - Ermənistan sərhədlərinin müxtəlif istiqamətlərində düşmən tərəfindən atəşkəsin intensiv şəkildə pozulması, müxtəlif təxribat cəhdləri özünü qabarıq surətdə büruzə verir. Belə görünür ki, düşmən əsas etibarı ilə dövlət sərhədində təxribatların həyata keçməsində daha maraqlıdır.**

Ekspertlər bütün bunların təsadüfi xarakter daşımadığını bildirir.

Təhlillər bu qənaətə gəlməyə əsas verir ki, düşmən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prosesə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) cəlb etmək kimi məkrli niyyətindən əl çəkmədiyi üçün sərhəd təxribatlarına daha çox meyllənir. Amma Ermənistanın özündə də etiraf olunur ki, KTMT-də Azərbaycanın nüfuz və təsir imkanları daha çox olduğundan, Ermənistanın cəhdləri birmənalı şəkildə iflasa məhkumdur. Qeyd edək ki, Ermənistan ordusu son günlər Azərbaycanla dövlət sərhədinin Qazax rayonu istiqamətində bir-birinin ardınca diversiya-təxribat həmlələri edir. Bundan başqa, düşmən son dövrlərdə Naxçıvan istiqamətində də fəallaşır. Belə ki, son vaxtlarda Ermənistan silahlı qüvvələrinin bölmələri Əlahiddə Ümumqoşun Ordunun mövqelərini atəşə tutmaqla atəşkəs rejimini kobud şəkildə pozur. Özü də bütün bunlar fonunda baş verənlərə görə İrəvan Azərbaycanı Ermənistanla dövlət sərhədində vəziyyəti gərginləşdirməkdə, regional sülh və təhlükəsizliyə hədə törətməkdə ittiham etməyə çalışır. Amma rəsmi Bakı düşmənin bu cəhdlərinin əbəs olduğunu bəyan edir. Xarici İşlər Nazirliyi bildirir ki, güc tətbiqi və etnik təmizləmə nəticəsində yaranmış hazırkı status-kvo vəziyyəti təhlükəsizlik anlayışı ilə heç cür uyğun gəlmir: "Azərbaycanın ərazilərinin işğalı və bu ərazilərdə Ermənistan silahlı qüvvələrinin mövcudluğu ölkəmizin təhlükəsizliyinə əsas hədə mənbəyidir. Azərbaycan hər zaman təhlükəsizlik anlayışının bölünməzliyi və universallığı mövqeyindən çıxış edib. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması, eləcə də bölgənin erməni və azərbaycanlı əhalisinin birgə sülh şəraitində, qanunun aliliyi prinsipinə uyğun yaşaması, birgə təhlükəsizliyin təminatı bölgənin rifahı naminə etimadın və yaxınlaşmanın yaranmasını müəyyən edən şərtlərdir. Ermənistan tərəfi mövcud reallığı düzgün dərk etməli və beynəlxalq ictimaiyyətin, o cümlədən BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələrinin Azərbaycanın işğal olunmuş ərazilərinin tam, dərhal və qeyd-şərtsiz boşaldılması, yerli azərbaycanlıların öz evlərinə geri qayıtmasının təmin olunması tələblərini yerinə yetirməlidir. Azərbaycanın ədaləti və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində öz ərazi bütövlüyünü bərpa edəcəyinə heç kəsin şübhəsi olmasın".

Baş verənlər KTMT üzvləri, o cümlədən burada həlledici mövqe sahibi kimi çıxış edən Rusiya tərəfindən də diqqətlə izlənilir. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın açıqlamaları da təsdiq edir. Azərbaycan-Ermənistan sərhədində və təmas xəttində atəşkəsin pozulması hallarına münasibət bildirən Mariya Zaxarova sərhəddə və qoşunların təmas xəttində baş verən insidentlərə görə təəssüfləndiklərini deyib: "Təəssüflər olsun ki, sərhəddə və qoşunların təmas xəttində atəşkəs rejiminin pozulması halları davam edir. Nəticədə ölənlər və yaralananlar var. Ölənlərin yaxınlarına başsağlığı verirəm. Biz tərəfləri güc tətbiq etməkdən çəkinməyə, münaqişənin siyasi yolla həllinə istiqamətlənən danışıqlar prosesini aktivləşdirməyə çağırırıq. Sizi əmin edə bilərik ki, biz bu mövzunu izləməyə davam edəcəyik". Bunlar fonunda Ermənistanda açıq etiraf edilir ki, İrəvanın KTMT-yə ümid etməsi əbəsdir. Ermənistan parlamentinin müstəqil deputatı Arman Babacanyan bu xüsusda bildirir: "KTMT-nin Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələrlə bağlı sakitliyi normal və ənənəvidir". O qeyd edib ki, bu halda KTMT Ermənistanın təhlükəsizliyini təmin etməyin müqaviləli öhdəliklərinə sahibdir: "Bu, KTMT-nin əslində bacarıqsız, həyati qabiliyyəti olmayan, irrasional bir ittifaq olması həqiqəti barədə sübut verir, KTMT-nin fəaliyyətsizliyini göstərir. Azərbaycan, həmçinin, KTMT-nin qarşı çıxmaması ilə dolayı şəkildə göstərir ki, bu hərbi-siyasi ittifaqda, əslində, ittifaqın nominal üzvü olan Ermənistandan daha çox müttəfiqlərə malikdir. Bu cür hadisələr və KTMT-nin sakitliyi Ermənistanın ictimai-siyasi gündəmində müzakirə mövzusu olmalıdır. Həyat göstərir ki, bu struktur Ermənistanın təhlükəsizliyinin təmin edilməsi işində hər hansı praktik əhəmiyyət və rola malik deyil. Hakimiyyət bu məsələdə təkdir, çünki təəssüf ki, bizim siyasi qüvvələrimiz üçün dövlət marağı yox, Rusiyanın müvafiq dairələrinə xoş gəlmək və ya onların qəzəbinə səbəb olmamaq motivi daha vacibdir". Erməni politoloq Ruben Mehrabyan da bildirir ki, Ermənistan KTMT-yə heç bir ümid bağlamamalıdır:"Ümidlərimizi bu təşkilata bağlamamalıyıq. KTMT-də digər ölkələr, o cümlədən Rusiya üçün Azərbaycan daha vacibdir".

Ermənistanda fəaliyyət göstərən "EADaily" nəşri də eyni mövqedən çıxış edir. Nəşr vurğulayır ki, münaqişənin həllində nəticənin əldə olunmaması Azərbaycan tərəfinin xeyrinə işləyir: "Mövcud situasiya Ermənistanda fərqli şəkildə başa düşülür. Ermənistan paytaxtında öz Silahlı Qüvvələrini ən müasir silahlarla gücləndirən Azərbaycanın ildırımsürətli hərbi əməliyyatlarla gözlənilmədən Dağlıq Qarabağı ala biləcəyi ilə bağlı fikir var. 2016-cı ilin aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələri bir anda Qarabağ cəbhəsinin bir neçə istiqamətinə sürpriz hücum etmək qabiliyyətinin olduğunu göstərdi. Qarabağ danışıqlarının dalana dirəndiyi indiki vaxtda da belə sürprizlər ola bilər. Rusiya və digər tərəfdaşlar isə KTMT daxilində hərbi müttəfiqi olan Ermənistana dəstəyi artırmır. Halbuki, Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün Qarabağda əməliyyatlara başlayacağı təqdirdə, Türkiyə ilə birlikdə hazırladığı ortaq planı işə salacaq. Rusiya isə bölgədə Ermənistanın yeganə hərbi müttəfiqi olsa da, Azərbaycanla da münasibətləri korlamaq niyyətinə deyil. Müharibə vəziyyətində Rusiyanın seçim etməməsi Ermənistan üçün arzuolunmaz nəticələrə gətirib çıxaracaq. Danışıqlar nəticə verməyəcəyi halda Bakı hərbi əməliyyat qərarı versə, bu, yaxın aylarda başlaya bilər. Bakıda hərbi ssenariyə üstünlük verilsə, Qarabağda irəliləmə qərarı yaxın aylarda, bəlkə də həftələrdə verilə bilər. Bu planın icrasına qarşıdan gələn isti aylar uyğun gəlir. Ermənistan bu vəziyyətdə təkdir, Rusiya və KTMT-nin digər üzvlərindən dəstək almır. Çünki onlar Azərbaycanla münasibətlərə qətiyyən xələl gətirmək istəmir. Əksinə, Rusiya hələ də KTMT-nin sıralarında Azərbaycanı görmək istəyir. Belarusun Ermənistandakı səfiri İqor Nazaruk da açıq bildirir ki, Minsk Azərbaycanın KTMT-yə üzvlüyünə qarşı deyil. Mövcud vəziyyət İrəvan üçün ciddi risqlər daşıyır".

Onu da qeyd edək ki, Ermənistanın KTMT-dən hələ də gözləntiləri əsasən təhlükəsizliyin hərbi komponenti ilə əlaqədardır. Bu, silah, birgə qoşunlar, müdafiə sistemləri və digər daha əlverişli şərtlərin əldə edilməsidir. Eyni zamanda bu gözləntilər nəinki keçmiş və indiki hakimiyyət tərəfindən, həm də erməni ictimaiyyəti tərəfindən hərbiləşdirilmiş gözləntilərdir. Ən başlıcası, ermənilərin əksəriyyətinin gözlədiyi odur ki, Ermənistan-Azərbaycan sərhədindəki hər atışmadan sonra KTMT Azərbaycana müharibə elan etsin. Bu baş verməkdikdə isə erməni cəmiyyəti Ermənistanın KTMT-yə üzvlüyünün məqsədəuyğunluğunu şübhə altına almağa başlayır. Paşinyan hökumətinin KTMT potensialının hərbi komponentinə çox diqqət yetirməsi öz növbəsində dövlət səviyyəsində qurumun digər imkanlarının qavranılmasını məhdudlaşdırır və nəticədə Ermənistanın KTMT-dəki rolunu zəiflədir. Məhz bu fonda KTMT Ermənistanı arxa plana atır. Ermənistanın belə vəziyyətdə KTMT-yə üzv digər dövlətlərlə də münasibətlərində ciddi çətinliklər yaranır. Yəni söhbət təkcə Rusiyadan getmir. Digər üzvlərlə münasibətlərdə yaşananlar da təşkilatda Ermənistanın mövqelərini daha zəif hala salır. Belə durum isə artıq rəsmi İrəvanın həlli üçün vaxt və böyük səy tələb edilən bir probleminə çevrilib. Ermənistanın əsas ümidi KTMT potensialının Azərbaycan və Türkiyə ilə münasibətlərdə istifadə ediləbiləcəyi olsa da, vəziyyət tam fərqlidir.

Ermənistan üçün vəziyyət həm də ona görə mürəkkəbdir ki, KTMT-yə üzv dövlətlərin Azərbaycanla yaxşı müansibətləri var və öz siyasi, iqtisadi maraqlarını Ermənistanın təhlükəsizlik problemlərinə qurban vermək istəmirlər. Bura, yuxarıda qeyd olunduğu kimi, Rusiya da daxildir. Erməni ekspert Qarik Keryan bunu belə izah edir: "Azərbaycanın nəinki Avrasiya İqtisadi Birliyi, həmçinin KTMT-yə üzv olması Rusiyanın xarici siyasət sahəsində ən böyük arzularından biridir. Ruslar çoxdan Azərbaycanın Avrasiya İqtisadi Birliyi və KTMT tərkibində olmasını arzulayır. Bu halda Azərbaycan Qarabağ məsələsində yaranmış vəziyyətdən öz lehinə istifadə etməyə çalışır. Çünki Azərbaycanda uzaqgörən insanlar oturub, onlar KTMT məsələsində maraqlı siyasət sərgiləyir və bunun bədəli Qarabağ olacaq".

Bütün bunlar bir daha Azərbaycanın Ermənistanın KTMT ümidlərinin üzərindən yeni bir xətt çəkdiyini göstərir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**ABŞ Dövlət Departamenti martın 11-də özünün 2019-cu il üçün illik İnsan Haqları Hesabatını açıqlayıb. Bu hesabatda İran, Çin və Venesuelada insan haqlarının vəziyyəti kəskin tənqid olunur. Hesabatda, ümumilikdə, 200 ölkə və ərazidəki vəziyyət qiymətləndirilir.**

*"İctimai Komitə mütəmadi olaraq cəzaçəkmə müəssisələrində monitorinqlər keçirir"*

# ABŞ Departamentinin Azərbaycan həbsxanalarındakı bəzi məsələlərə tənqidi rəyinə əsaslı etirazlar var

***Səadət Bənənyarlı:** "Hesabatda məhbusların saxlanma şəraiti ilə bağlı səslənən tənqidi fikirlər reallıqdan uzaqdır"*

Hesabatın Azərbaycana aid hissəsində isə deyilir ki, guya ölkədə insan haqlarının sistematik və kobud şəkildə pozulması ötən il də davam edib. Sənəddə insan hüquqları, işgəncələr, qanunsuz həbslər, siyasi məhbuslar, şəxsi həyata müdaxilə, məhkəmə hakimiyyətinin müstəqil olmaması problemi, söz, mətbuat və internet azadlığının ciddi şəkildə məhdudlaşdırılması, jurnalistlərə qarşı zorakılıq, jurnalistlərin təqibi və həbsi və digər məsələlər əksini tapıb. İddia olunur ki, Azərbaycan hökuməti insan hüquqlarını pozan vəzifəli şəxslərin əksəriyyətini cəzalandırmayıb, onların cəzasızlığı problem olaraq qalır.

Ən qəribəsi odur ki, Dövlət Departamentinin hesabatında Azərbaycanda məhbusların saxlanma şəraitinin yaxşı olmamasından bəhs edilib. Guya məhbuslar həbsxanalarda həyat üçün təhlükəli olan saxlanma şəraiti mövcuddur. Hansı ki, bu sahədə ötən illər xeyli iş görülüb. Məhbusların saxlanma şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Ədliyyə naziri yanında İctimai Komitənin koordinatoru Səadət Bənənyarlının sözlərinə görə, hesabatda səslənən fikirlər həqiqəti əks etdirmir: "O cümlədən, məhbusların saxlanma şəraiti ilə bağlı səslənən tənqidi fikirlər reallıqdan uzaqdır. Çünki cəzaçəkmə müəssisələrində məhbusların saxlanma şəraiti normal vəziyyətdədir. Bununla bağlı ötən illər ərzində çoxsaylı iş görülüb. Guya bununla bağlı onların vəziyyətinin dözülməz olması ilə bağlı səslənən fikirlər həqiqəti əks etdirmir. İctimai Komitə mütəmadi olaraq cəzaçəkmə müəssisələrində monitorinqlər keçirir. Orada saxlanan məhkumlarla tez-tez əlaqə saxlayırıq. Bizim məhkumlarda əlaqə telefonlarımız var. Hər hansı bir hadisə baş verəndə, çətinliklə üzləşəndə, məhbuslar bizimlə əlaqə saxlayırlar. Hətta qriplə bağlı məsələlər də diqqət mərkəzindədir. Bir şey olanda İctimai Komitə bunu araşdırır və müvafiq orqanlarla əlaqə saxlayır, ölçülər götürülür. İndiki halda, cəzaçəkmə müəssisələrində məhbusların saxlanma şəraiti yaxşıdır. Yeri gəlmişkən onu da qeyd edim ki, qadın məhbusların saxlandığı cəzaçəkmə müəssisəsi yenilənir. Yəni əvvəlki həbsxana köhnə olduğuna görə yenisi tikilir. Bütövlükdə, cəzaçəkmə müəssisələrində yaranan nöqsanlar aradan qaldırılır".




***Vidadi ORDAHALLI***

**Bu il fevralın 27-də Prezident İlham Əliyevin 343 nəfərin Azərbaycan Respublikasının vətəndaşlığına qəbul və bərpa edilməsi haqqında imzaladığı sərəncamların icrası olaraq, Dövlət Miqrasiya Xidmətində (DMX) həmin şəxslərin təntənəli andiçmə mərasimi keçirilib.**




# Azərbaycan vətəndaşı olmaq və vətəndaşlığa qayıtmaq istəyənlərin sayında böyük artım başlayıb - proses səbəbsiz deyil

***Rauf Zeyni:** "Bizim bu uğurumuzun təməlində duran səbəblərdən biri də ölkənin uzun illər ərzində düzgün idarə olunmasıdır"*

Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Vüsal Hüseynov tədbir iştirakçılarını əlamətdar gün və qarşıdan gələn Novruz bayramı, xanımları Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. Bildirib ki, müasir müstəqil Azərbaycanın tamhüquqlu vətəndaşı olmaq qürurvericidir. Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrini əhatə edən dinamik inkişafa, hər bir Azərbaycan ailəsinin rifahının yaxşılaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsinə, ölkəmizin maraqlarına cavab verən tarazlaşdırılmış xarici siyasətin yürüdülməsinə uğurla nail olub. Sonra vətəndaşlığa qəbul və bərpa edilmiş 343 nəfər təntənəli şəkildə Azərbaycanın dövlət bayrağı önündə Konstitusiyaya əl basaraq, dövlət dilində ölkəmizə sadiq olacaqları barədə and içiblər. Göründüyü kimi, Azərbaycan vətəndaşı olmaq istəyənlərin sayında kəskin artım müşahidə edilir. Bunun səbəbini hansı amillərlə izah etmək olar?

Milli Qeyri Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun bir sıra obyektiv səbəbləri var:"Xidmət rəisi bildirib ki, ölkədə həyata keçirilən siyasətin nəticəsində Azərbaycanda yaşamaq, işləmək, təhsil almaq, xüsusilə Azərbaycan Respublikasının vətəndaşı olmaq istəyənlərin sayı ildən-ilə artır. Aparılan uğurlu siyasət vaxtilə respublikanı tərk edib, digər dövlətlərə getmiş Azərbaycan vətəndaşlarının da geri qayıtması tendensiyasına müsbət təsir edib. Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə bundan əvvəlki illərdə də Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilənlər olub. Onların indiyə qədər olan sayı on minlərlə ölçülür. Ən maraqlısı isə budur ki, bu kateqoriya adamların içərisində heç də hamısı həyat şəraiti aşağı sayılan ölkələrin vətəndaşları olmur. Azərbaycanı onlar üçün vətən olmağa cəlb edən səbəblərin ən başlıcası burada stabilliyin, təhlükəsizliyin yüksək səviyyədə olmasıdır. Bundan əlavə, Tanrı ölkəmizə bütün gözəllikləri bəxş edib. Gözəl təbiət, dəniz, meşə, nə desəniz burada var. Bizimlə qonşu ölkə olan Ermənistanda isə əks tendensiyanın şahidi oluruq.

Ora nəinki vətəndaşlıq üçün müraciət edirlər, əksinə, öz vətəndaşları kütləvi şəkildə oranı tərk edir. Bizim bu uğurumuzun təməlində duran səbəblərdən biri də ölkənin uzun illər ərzində düzgün idarə olunmasıdır. Ümidvaram ki, gətgedə bizim vətəndaşımız olmaq istəyənlərin sayı daha da artacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Elçibəy dövründən qalma kadr sayılan Şirzad Abdullayev kimdir...

**Martın 12-də Prezident İlham Əliyevin imzaladığı sərəncamla İqtisadiyyat nazirinin müavini Şirzad Abdullayev vəzifəsindən azad edilib. Qeyd edək ki, Ş.Abdullayev 2018-ci ilin iyun ayında nazir müavini təyin olunub.**

Bundan əlləki dövrlərdə - 2003-2008-ci illərdə Mərkəzi Bankın Bank nəzarətinin hüquqi təminatı şöbəsinin rəisi, 2008-ci ildən İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru olub.

Ş.Abdullayevin adı mediaya əsasən Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru işlədiyi dövdən daha yaxşı tanışdır. Onun haqqında internet resurslarında onlarla tənqidi və ittiham dolu iddialar yer alıb. Həmin məlumatlarda bildirilir ki, Ş.Abdullayev sahibkarlara ayırdığı dövlət vəsaitləri ilə bağlı ciddi "otkat" əməliyyatlarına yol verib. Hətta həmin zaman tələb olunan haqqın faizi də müəyyənləşib. Sən demə, "zəhmət haqqı" adı ilə Ş.Abdullayev vətəndaşlardan 15 faizin geri qaytarılmasını tələb edirmiş. Bu tələblə razılaşmayan sahibkarlar isə kreditlərin alınmasından məhrum edilirdi. Maraqlıdır ki, 2018-ci ildə Ş.Abdullayevin rəhbərlik etdiyi Fond ləğv edildi və bu şəxs İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin olundu. Görünür, Ş.Abdullayevin vəzifəyə təyinatından az müddət sonra tutduğu vəzifədən uzaqlaşdırılması təsadüfi deyil. Yəqin ki, burada da söhbət hansısa ciddi nöqsandan gedir.

Maraqlıdır ki, bir həftə əvvəl Ş.Abdullayev hətta özünü mediada ucuz piar etmək eşqinə də düşdü. İndiyə qədər heç vaxt ictimai nəqliyyatdan istifadə etməyən bu adamın şəkilləri metro qatarından yayıldı. Xəbər belə başlıqla tirajlandı ki, sən demə, bizdə də metro ilə işə gedib-gələn nazir müavini var. Aydındır ki, belə piar xarakterli xəbər Ş.Abdullayevin öz istəyilə yayılıb. Yəqin ki, başının üstündə qara buludların dolaşdığını görən sabiq nazir müavini bu üsulla hansısa məsuliyyətdən yayınmağı düşünürmüş.

Ş.Abdullayev Azərbaycanın müstəqilliyindən sonra bütün komandalarla işləməyi bacarmış bir məmur kimi xarakterizə olunur. O, indiyə qədər kreslosunu qorumağı bacarmış, hətta karyera pilləsində irəliləməyə də nail olub. Elçibəy komandasının üzvlərindən sayılır. Bu şəxs Elçibəy komandası dönəmində Milli Bankın sədr müavini işləyib. Media üzərindən apardığımız araşdırmadan məlum olur ki, sən demə , Ş.Abdullayev elə həmin dönəmlərdən "qara işlər"lə məşğul olub.

Bir müddət əvvəl əslən Salyan rayonundan olan iş adamı Həsənov Mirpaşa Əliqulu oğlunun Ş.Abdullayevin keçmiş vəzifəsində işlədiyi dönəmdə Azinforum.az saytına etdiyi müraciətinə nəzər yetirsək, maraqlı detallara işıq salmış olarıq. Şikayətçi bildirib ki, uzun müddətdir Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru olan Ş.Abdullayevə etibar etdiyi külli miqdarda pulunun taleyi ilə maraqlana bilmir. Onun sözlərinə görə, bir neçə ildir Ş.Abdullayevlə görüşə cəhd etsə də, qəbuluna düşməyə müvəffəq olmur. İş adamının dediyinə görə, bu hadisənin tarixi 1993-cü ilə gedib çıxır: "Həmin vaxt mən bizneslə məşğul olurdum. "Kür" adlı kiçik müəssisəm vardı. Əsasən də MDB ölkələri ilə mal mübadilələri edirdim. Bunun üçün mən "Azinvestisiya" adlı səhmdar bankında hesab açdırdım. O vaxt sözügedən bankın müdiri Ş.Abdullayev idi. Yaxşı biznes fəaliyyətim olduğu üçün, hesabımda külli miqdarda pul vardı. Bunu görən Ş.Abdullayev 1993-cü ildə mənə dedi ki, qoyulan yeni tələbə görə, onun rəhbərlik etdiyi bank Milli Bankdan qeydiyyatdan keçməlidir və bunun üçün tələb olunan nizamnamə kapitalı onda çatmır. O mənə təklif etdi ki, 10 milyon (o vaxtkı məzənnə ilə - red.) pul köçürməklə bankın payçısı olum. Elə həmin vaxt mən Ş.Abdullayevlə müqavilə imzaladım. Həmin müqavilənin notarial təsdiqlənmiş forması mənim əlimdədir. Müqavilənin şərtlərindən aydın görünür ki, məbləği ödəməklə mən Ş.Abdullayevin bankının payçısı olmuşam. Onların da öhdəlikləri bundan ibarət idi ki, bankın gəlirləri və çıxarları haqda məni hər kvartal məlumatlandırsınlar. Elə o ərəfələrdə mən işlərimlə əlaqədar bir müddət Rusiyada qalmalı oldum. Ancaq həmin müddətdə də Ş.Abdullayev bir dəfə də olsun məni axtarmadı. Azərbaycana qayıdandan sonra isə nə həmin bankı, nə də Ş.Abdullayevi tapa bildim. Bir neçə il üstündən keçəndən sonra eşitdim ki, Ş.Abdullayev Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru təyin edilib. Müxtəlif vaxtlarda, dəfələrlə onunla görüşüb bu məsələni aydınlaşdırmaq istəsəm də, məni qəbul etməyib. Mən bunu söz olaraq demirəm, əlimdə dediklərimi təsdiq edən və Şirzad müəllimin özünün imza atdığı sənəd var.



Sizin sayt vasitəsilə ondan xahiş edirəm ki, məni qəbul etsin və ona etibar etdiyim külli miqdarda vəsaitin taleyinin necə olduğu barədə məni məlumatlandırsın. Hər halda, bunu tələb etməyə mənim tam haqqım çatır. Axı mən həmin pulları yoldan tapmamışdım, öz halal zəhmətimlə qazanmışdım".

Qeyd edək ki, bu şikayətin mediada işıqlandırılmasından sonra Ş.Abdullayev şikayətçiyə ciddi təzyiqlər göstərir. Həmin yazının dərcindən sonra Mirpaşa Həsənov yaşadığı Salyan rayonunun İcra Hakimiyyətinə dəvət edilib. Onunla görüşən İcra Hakimiyyətinin məsul əməkdaşı vətəndaşı mətbuatda etdiyi şikayətlə bağlı sorğu-sual edib, sonra isə məsələnin aydınlaşdırılması üçün Bakıda Ş.Abdullayevlə görüşün zəruriliyini bildirib. Vətəndaşın sözlərinə görə, o, təklifi qəbul edib və Ş.Abdullayevin qəbuluna gəlib. Bundan sonra nələrin baş verdiyini isə Mirpaşa Həsənov ölkə başçısı cənab İlham Əliyevə etdiyi videomüraciətdə nəql edir.

**Bütün bu faktlar onu deməyə əsas verir ki, bəzi məmurlar ölkə başçısının ifadə etdiyi kimi, harınlıq ediblər. Onlar dövlət vəsaitlərindən istədikləri kimi istifadə ilə yanaşı, həm də haqqını tələb edən vətəndaşlara qarşı təzyiqlər etməkdən belə çəkinməyiblər. Ölkədə aparılan islahatlar sübut edir ki, bu tip məmur nümunələri artıq proseslər ləngidir və onları bir-bir uzaqlaşdırmağın vaxtı tam yetişib.**

*Məhəmmədəli QƏRİBLİ*

**Neft bazarında yaşanan proseslər burada yeni qiymət oyunlarından dünya iqtisadiyyatının, xüsusən də hasilatçı ölkələrin ciddi zərər görəcəyini deməyə əsas verir. Xüsusən də iqtisadiyyatı enerji gəlirlərindən birbaşa asılı olan ölkələr, məsələn, elə Səudiyyə Ərəbistanı özü qiymətlərin uzun müddət indiki həddə qalmasına tab gətirə bilməz.**

# Azərbaycan dünya neft bazarındakı ajiotaja ən inamlı dözüm göstərən ölkələr sırasında...

Amma buna rağmən, baş verənlər qiymət oyununun hələ müəyyən müddət davam edəcəyini göstərir.

Hazırda enerji amilindən iqtisadiyyatları əhəmiyyətli dərəcədə asılı olan ərəb ölkələri qiymətlərdə heç də iqtisadi əsası olmayan siyasət yürüdür. Məsələn, məlumdur ki, Səudiyyə Ərəbistanı Avropa ölkələrinə nefti bir barreli 25 dollardan təklif edir. Həmçinin Ər-Riyad Avropa ölkələrinə tədarük etdiyi neftin həcmini üç dəfə artıracaq. Səudlar qiymətlə bağlı təklifi "Royal Dutch Shell", "BP", "Total", "OMV", "Repsol" və "Cepsa" şirkətlərinə göndərib. OPEC-ə daxil olan İraq və Küveyt də Səudiyyə Ərəbistanının ardından aprel ayında təklif etdikləri xammalın qiymətini azaltmaq barədə qərar veriblər. Bu arada Birləşmiş Ərəb Əmirlikləri fevral ayında həyata keçirilən neft sövdələşmələri üçün də qiyməti aşağı endirib. Məlumata əsasən, İraq "Basrah Light" markalı neftin bir barreli üçün qiyməti 5 dollar, "Saudi Aramco" isə "Arab Medium" markalı neftin bir barreli üçün qiyməti 6 dollar azaldır. Küveytin idxalçılara nə qədər güzəşt təklif edəcəyi açıqlanmır.

Müşahidəçilər Ər-Riyadın hasilatı artırmaq və nefti böyük endirimlərlə satmaq qərarını birmənalı şəkildə "Rusiyanı cəzalandırmaq" cəhdi kimi qiymətləndirirlər. "Bloomberg" agentliyinin icmalçısı Devid Fiklinq qeyd edir: "Bundan əvvəl Səudiyyə Ərəbistanı iri oyunçular arasında əməkdaşlığın təşviqi yolu ilə neft bazarında mövqelərini və gəlirlərini qoruyub-saxlamağa ümid edirdi. İndi isə Səudiyyə Ərəbistanı hesab edir ki, yaranmış şəraitdə tam əks addımı atmaq - qələbəyə ümid bəsləyərək, Moskva və ABŞ-ın müstəqil neft sənayesi ilə "kim birinci qorxacaq" oyununa başlamaq daha məqbuldur. İndilikdə neft bazarında gedən qiymət müharibəsi sonadək mübarizəyə yönəlib və burada qalibiyyət daha güclü olanın yox, daha çox dözənin olacaq". Bu baxımdan, analitiklər Səudiyyə Ərəbistanının mövqelərinin kifayət qədər zəif olduğunu etiraf edirlər. Hesab edilir ki, Səudiyyə Ərəbistanı nefti rekord dərəcədə aşağı xərclə, yəni bir barrelə təxminən üç dollar xərcləməklə hasil edə bilir. Lakin "qara qızıl"ın satışından əldə edilən gəlirlərə əsaslanan dövlət büdcəsi bir barrelə 85 dollar qiyməti üçün nəzərdə tutulub. Yəni neft sahəsi gəlirliliyini saxlayacaq, amma bütövlükdə ölkə çox sürətlə müflisləşəcək. Buna isə Səudiyyə uzun müddət tab gətirə bilməz. Rusiya isə Rifah Fondunda toplanan vəsait hesabına 6-10 il ərzində neftin aşağı qiymətinə tab gətirə biləcəyini bəyan edir. Belə ki, Rusiya Maliyyə Nazirliyi ölkənin neftin aşağı qiymətinə qarşı 6-10 il aralığında müqavimət göstərə biləcəyini açıqlayıb: "Milli Rifah Fondunun aktivləri, neftin qiymətinin aşağı enməsinə baxmayaraq, dövlətin öz öhdəliklərini yerinə yetirməsi və makro sabitliyi davam etdirmək üçün kifayət edəcək səviyyədədir". Bu baxımdan Azərbaycan da böyük şansı olan ölkələrdən sayılır. Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirir ki, Azərbaycan iqtisadiyyatı neftin hazırkı qiymətinə Rusiyadan daha artıq tab gətirə bilər. Prezidentin köməkçisi Şahmar Mövsümov isə hətta konkret müddət də açıqlayır. O, 2014-2016-cı illərdə neftin qiymətində müşahidə olunan volatilliyə nəzər salaraq deyib ki, o zaman neftin qiymətinin 140 dollardan 30 dollara qədər düşməsi qeydə alınmışdı: "Bu, kəskin volatillik idi. Buna nisbətdə bu gün müşahidə edilən dəyişiklik o qədər də böyük deyil. Təbii ki, bu illər ərzində Azərbaycan iqtisadiyyatının da neftin qiymətindən asılılığı kəskin şəkildə azalıb. Bu gün Azərbaycan iqtisadiyyatı kifayət qədər dayanıqlıdır. Valyuta məzənnəsi ilə bağlı təzyiq də daha çox psixoloji amillərə əsaslanır. Azərbaycan bu gün heç bir dəyişiklik etməsə belə, ehtiyatlarımız bizə növbəti 20 ildə də dayanıqlı fəaliyyət göstərməyə imkan verəcək. Hesab edirəm ki, hər hansı narahatlığa əsas yoxdur".




Digər tərəfdən məlumdur ki, neftin qiymətlərinin aşağı olması halı davam edərsə belə, bu, cari ildə Azərbaycana ciddi təsir etməyəcək. Xüsusən də Neft Fondunun dövlət büdcəsinə transfertlə bağlı öhdəliyinə burada təsir olmayacaq. Xatırladaq ki, dövlət büdcəsinə transfertlə bağlı xərclər Fondun öhdəliyidir və xam neftin qiymətlərindən asılı olmayaraq bu öhdəlik yerinə yetirilməlidir. Dövlət Neft Fondunun 2020-ci il büdcəsində 11,56 milyard manat həcmində büdcə öhdəliyi nəzərdə tutulub ki, manatla ifadə edilən bu öhdəliyin icrası üçün Fond tərəfindən il ərzində ümumilikdə 6,8 milyard dollar məbləğində xarici valyutanın satışa çıxarılması nəzərdə tutulur.

**Cari ilin əvvəlindən bu günə qədər satışa ümumilikdə 1,8 milyard dollar və yaxud 3,08 milyard manat həcmində valyuta çıxarılıb. Qalıq öhdəliyin icrası üçün fond tərəfindən 5 milyard dollar məbləğində xarici valyutanın satışa çıxarılması nəzərdə tutulur ki, bu da xarici valyuta ilə bağlı kifayət qədər böyük təklifdir.**

***Nahid SALAYEV***

**Dünyanın əksər ölkəsində yayılan koronavirus, öz növbəsində, ölkəmizdə də təşviş yaradır. Virus şübhəsi ilə bir neçə şəxsin xəstəxanaya yerləşdirilməsindən sonra isə narahatlıq bir qədər də artıb. Heç şübhəsiz ki, bundan dolayı da böyük kütləvi təbirlərin bəziləri təxirə salınıb, insanlar da belə yerlərə getməkdən çəkinirlər.**

# Cəmiyyət koronavirusa görə toy ziyafətlərini təxirə salmağa meyllidir, ancaq restoran sahiblərinin səsi çıxmır...

***"Pluton" şadlıq sarayı - Nəcəf Abbasov:** "Aprel üçün toy sifarişləri qəbul edilib"*

***"Gilavar" şadlıq sarayı - Sahib:** "Biz qabları, süfrələri də dezinfeksiya etdiririk, o dərmanlar təsirini bir ay saxlayır, ora viruslu adam girsə belə, qorxusu yoxdur"*

***Adil Qeybulla:** "Restoran, şadlıq evi kimi yerlərdə tədbirlər təxirə salınmalıdır"*

Bununla yanaşı, Nazirlər Kabineti yanında Operativ qərargah koronavirus təhlükəsi ucbatından toy, şənlik və digər kütləvi məclislərin ertələnməsini tövsiyə edib. Ancaq restoran və şadlıq evləri bu tövsiyəyə əməl etmirlər. Belə ki, bu gün də şadlıq evlərində toy və digər məclislər keçirilməkdə davam edir. Şadlıq evlərinin sahibləri səbəb kimi bildirirlər ki, xəstəlik əhali arasında panika yaradır: "Camaat bir-birindən dolanır. Toy bazar iqtisadiyyatını tənzimləyir. Bazarda kartof, qızıl satandan tutmuş, "Binə", "Sədərək" ticarət mərkəzinə, taksiyə, işıq, qaz, vergi idarəsinədək hamı toydan dolanır. Toyların təxirə salınması ölkəni panikaya sala bilər, hamı ziyan çəkər".

"Pluton" şadlıq sarayının inzibatçısı Nəcəf Abbasov artıq aprelə toy sifarişləri qəbul edildiyini bildirir. Onun söylədiyinə görə, rəsmi qərar yoxdur deyə, toylar davam edir.

"Gilavar" şadlıq sarayının inzibatçısı Sahib adlı şəxs bildirdi ki, hər şey qaydasındadır. Virusla bağlı aparılan profilaktik tədbirlərin görüntüləri sosial mediada yerləşdirilib. Hətta bununla bağlı rəsmi qurumlardan akt da alınıb: "Biz qabları, süfrələri də dezinfeksiya etdiririk, o dərmanlar təsirini bir ay saxlayır, ora viruslu adam girsə belə, qorxusu yoxdur".



Həkim, professor Adil Qeybullanın sözlərinə görə, bütün hallarda, məhdudiyyətlər lazımdır: "Karantin dövründə belə məhdudiyyətlər daha yaxşı olar. Xüsusən restoranlar, şadlıq evləri, yəni qapalı yerlərdə xəstə insanın infeksiyanı başqalarına yaymaq şansı artmış olur. O baxımdan, müvəqqəti olaraq toyların, ad günlərinin və başqa məclislərin ertələnməsi yaxşı olardı".

Həmsöhbətimiz onu da əlavə etdi ki, karantin zamanı bəzi addımların məcburi, bəzilərinin tövsiyə xarakteri daşıması normaldır: "Məsələn, əhaliyə əllərini tez-tez yumaq tövsiyə olunur. Buna məcbur etmək mümkün deyil. Ancaq restoran, şadlıq evi kimi yerlərdə tədbirlər təxirə salınmalıdır. Müvəqqəti olaraq 5-10 və daha artıq insanın bir yerdə toplanıb tədbir keçirməsi yasaqlanmalıdır. Bu, ekstremal vəziyyətdir. İnfeksiya aradan qalxanadək etmək olar. Çətini bir-iki aydır".

***Günel CƏLİLOVA***

**Minik avtomobillərindən oğurluq halları sürücülərin ən çox üzləşdiyi problemlərdəndir. Araşdırmalara görə, belə cinayət əməlləri daha çox yay aylarında baş verir. Avtomobildən oğurluq hallarının statistikası göstərir ki, bəzi hallarda bunu edən şəxslər heç bir çətinliklə üzləşməyiblər.**

# Sürücülərimizin "viktim davranış" problemi - maşın qarətlərinə görə hər günahı mühafizə sisteminin üstünə atmaq doğrudurmu...

*"Ələ keçirilərək asan satıla və ya istifadə oluna biləcək dəyərli bir şey görsə, oğurluq etməyə çalışacaq"*

***Ərşad Hüseynov:** "Avtomobildə potensial oğrunun diqqətini çəkən heç nə saxlanmamalıdır"*

Avtomobilin qapı və ya pəncərəsinin açıq olması bu cür hallara zəmin yaradır. Buna görə də ekspertlər sürücülərin də diqqətli olmasını vacib sayırlar.

Nəqliyyat vasitələrinin talana məruz qalması ilə bağlı Bakı şəhər BPİ Mətbuat Xidməti maraqlı bir məlumat yayıb. Məlumatda qeyd olunur ki, nəqliyyat vasitələri əsasən sahibinin viktim davranışı (zərərçəkmiş şəxsin cinayətin törədilməsi üçün yaratdığı şərait) zəminində talana məruz qalır: "Bu həm də əmlak sahibinin öz mülkiyyətinə olan münasibətindən asılıdır. Nəqliyyat vasitələrinin sahiblərinin avtomobilləri əsasən mühafizə olunmayan, işıqlandırılmayan, yaxud "Təhlükəsiz Şəhər" kameralarının əhatə dairəsindən kənar, gedişgəlişin az olduğu küçələrdə saxlamaları müşahidə olunur. Bütün bunları nəzərə alaraq, nəqliyyat vasitələri park olunarkən sürücülər elementar qaydalara əməl etməli, viktimoloji şəraiti nəzərə almalı, avtomobillərin salonunda qiymətli əşyaların saxlanmamasına fikir verməlidirlər".

Doğrudan da bu gün elə sürücülər var ki, onlar öz avtomobillərini park edərkən elementar qaydalara riayət etmirlər. Maşının ya pəncərəsini açıq qoyur, ya da salonda qiymətli əşya, çanta qoyub gedirlər. Bu kimi hallar göstərir ki, nəqliyyat vasitələrinin talan edilməsində vətəndaşların da günahı var. Belə ki, vətəndaşlar öz məsuliyyətlərini dərk edib, avtomobillərində qiymətli əşya, ümumiyyətlə, diqqətçəkən nəsə qoymasalar, oğru həmin nəqliyyat vasitəsinə yaxın durmaz.

Hüquqşünas, nəqliyyat vasitələri üzrə ekspert Ərşad Hüseynov bildirdi ki, avtomobildə potensial oğrunun diqqətini çəkən heç nə saxlanmamalıdır: "Oğurluğa meylli adam bunu etməzdən əvvəl avtomobilə mütləq baxır. Ələ keçirilərək



asan satıla və ya istifadə oluna biləcək dəyərli bir şey görsə, oğurluq etməyə çalışacaq. Ona görə də avtomobildə çanta, diplomat, portfel və qiymətli görünə bilən və ya içərisində pul və ya qiymətli nəsə olması ehtimal edilən qutular, bağlamalar saxlamayın. Ən təhlükəlisi qadınların və ya kişilərin əl çantasıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, avtomobili oğrulardan qorumağın ikinci yolu nəqliyyat vasitəsini hər zaman imkan daxilində həmişə adam olan, yaxşı görünən, kameralarla nəzarət edilən, gecə vaxtı isə işıqlanan yerlərdə saxlamaqdır: "Təcrübə göstərir ki, kimsəsiz və nəzarətsiz yerdəki avtomobildə heç nə olmasa da, bəzən oğrular ona müdaxilə edib, sadəcə, axtarış edirlər. Nəzərə almaq lazımdır ki, avtomobildən oğurluq məqsədilə müdaxilə sadəcə konkret pulun, sənədin və ya başqa əşyanın itməsi ilə nəticələnməyəcək. Bunu edən oğru həm də avtomobilə ziyan vuracaq (adətən şüşələri sındırırlar, qapını zorla açaraq yararsız edirlər və s.). Bəzən avtomobilə dəyən zərər oğurlanan əşyaların dəyərindən 10 qat artıq olur".

***Günel CƏLİLOVA***

# Azərbaycanda distant təhsilə keçmək zərurəti yaransa - bu internet sürətilə hara getmək olar...

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya elan edilən COVID-19 virusu bütün dünyanı təhdid etməkdədir, canlar almaqdadır. Koronavirus təhlükəsindən qorunmaq üçün digər dövlərlərlə yanaşı, Azərbaycanda da kifayət qədər iş görülüb. Məlumdur ki, martın 3-dən etibarən ali və orta ümumtəhsil məktəblərində tədris prosesi müvəqqəti olaraq dayandırlıb.**

Bu da distant təhsilin aktuallığını artırıb. Hazırda Azərbayanda distant təhsilin tətbiq edilməsinə ciddi zərurət yaranıb. Əlbəttə, bu, ilk növbədə, təhsilin fasiləsizliyinin təmin edilməsi ilə bağlıdır. Bilirsiniz ki, koronavirusla bağlı ali məktəblərin də üzərinə böyük işlər düşür və onlar bu vəziyyətdə distant təhsili gündəmə gətirməli, tələbələrə bu şəkildə dərslər keçməlidirlər. Tələbə evdən bayıra çıxmadan evində oturub mühazirələri dinləyə, müəllimlərlə sual-cavab edə bilər. Bu, bütün dünyada belədir. Koronavirus təhlükəsilə bağlı ölkəmizdə hələlik Gömrük Akademiyası distant təhsilə keçdiyini bəyan edib. O biri ali təhsil ocaqları isə həm bu prosesə hazır olmadıqları, həm də ölkəmizdə internetin keyfiyyətsizliyi üzündən distan təhsili tətbiq edə bilmirlər. Əgər ölkəmizdə tədrisin müvəqqəti dayandırılması prosesi uzadılarsa və distant təhsilə keçmək zərurəti yaranarsa, onda ali məktəblərin qarşısına ilk çıxan maneə internetlə bağlı olacaq. Təhsil müəssisələrinin özləri də açıq şəkildə olmasa da, dolayı şəkildə keyfiyyətli internet təminatının olmamasının onların işlərinə maneə törətdiyini bildirirlər.

Bakı Mühəndislik Universitetinin Mühəndislik fakültəsinin dekanı, dossent Hüseyn Mirzəyev bizimlə söhbətində distant təhsilə əngəl olan kəsintisiz internet probleminin olduğunu qeyd etdi. "Distant təhsil üçün ən vacib iş sürətli və kəsintisiz internetin olmasıdır, bizdə internet qiymətləri kifayət qədər baha, sürət isə kafi deyil. Bu problemin aradan qaldırılması üçün "Aztelekom"un və mobil operatorların üzərinə böyük iş düşür. Türkiyə bir həftədən sonra distant təhsilə başlayır və bunun üçün bütün mobil operatorlar hər kəsə pulsuz 3 Gb internet ayırıb. Bizim mobil operatorlardan bir təklif varmı? Digər tərəfdən, hər bir müəllimin və tələbənin kompyuteri olmalıdır. Bizdə müəllimlərin bir qismi buna hazır deyil, digər qisminin normal kompyuteri yoxdur. Proqram təminatında problem var.

Düşünürəm ki, virtual auditoriya təşkil etmək, eyni zamanda, bütün sinfin və ya qrupun iştirakı ilə Webinar təşkil etmək, tələbələrin davamiyyətini qeydiyyata almaq sadaladığım problemlərə görə alınmayacaq. Ən yaxşısı "Google Classroom" və "Edmodo" kimi sistemlərdən, sosial şəbəkələrdən faydalanmaq olar. Burada müəllim sinif açır, tədris materiallarını oraya yerləşdirir, tələbələri ilə mütəmadi paylaşır, onlara tapşırıqlar, quizlər verir və s. Tələbələr bu tapşırıqları yerinə yetirib göndərir və müəllim də sistem üzərindən qiymətləndirmə aparır.



**Hüseyn Mirzəyev:** *"Distant təhsil üçün ən vacib iş sürətli və kəsintisiz internetin olmasıdır"*

**Nadir İsrafilov:** *"Ölkədə kütləvi olaraq distant təhsilə keçilməməsinin əsas səbəbi kimi internetin zəif olması göstərilir"*

**Osman Gündüz:** *"Bu məsələdə əsas problem, iş Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin üzərindədir"*

Əslində, çox sadə və rahatdır, mən 3 ildən çoxdur istifadə edirəm. Bircə çətinliyim tələbələrimin hamısını bu virtual auditoriyalara cəlb etmək və mühazirələrimi səsli və görüntülü olaraq video screen Capture etməkdir. Bəlkə də kompyuterim zəif olduğundan, bu iş ürəyimcə alınmır. "Xbox Game Bar", "Active Presenter" və "Camtasia 2019" proqramlarından istifadə edirəm, ekranı yazmaqda problem yoxdur, amma səsi qeydə almır. Bu problemin həlli üçün yardım edənlər olarsa, öncədən çox-çox təşəkkür edirəm" - deyə qeyd edib.

Tanınmış təhsil eksperti Nadir İsrafilov isə hesab edir ki, ali məktəblər özləri bu məsələyə hazır olmalıdırlar. Onun fikrincə, bu sahədə bütün universitetlər UNEC-in təcrübəsini öyrənməlidir. "Distant təhsil internet resursları üzərindən həyata keçirilən prosesdir. Biz Boloniya prosesinə qoşulmuşuq və təcrübəsində belədir. Açıq etiraf edək, biz Boloniya prosesinin kredit sistemindən başqa bütün şərtlərinə lazımi səviyyədə əməl etmədik. Bunun nəticəsində də distant təhsil kimi vacib bir istiqamət diqqətdən kənarda qaldı. Koronavirus təhlükəsi yarandıqdan sonra distant təhsil məsələsi yenidən aktuallaşdı. Bilmək olmaz, koronovirusla bağlı elə təhlükəli vəziyyət yarana bilər ki, yeganə çıxış yolu distant təhsil ola bilər. Bilirsiniz burada əsas məsələlərdən biri ali məktəblərdə distant təhsilin reallaşdırılmasıdır. Yəni tələbə gündəlik dərsə getmədən sərbəst şəkildə distant təhsil almaqla təhsilini davam etdirir. Bu, dünya ki, bu gün dünyanın çox yerində, eləcə də Azərbaycanda orta və ali məktəblər müvəqqəti olaraq fəaliyyətini dayandırıb. Yəni proseslər kollektiv şəkildə həyata keçirilmir. Bundan çıxış yolu da distant təhsildir. Bilirsiniz, təhsildə fasiləsizlik prinsipi var və bu fasiləsizliyin təmin olunması vacibdir. Heç kəs təminat verə bilməz ki, koronavirus təhlükəsi nə zaman sovuşacaq və təhsil prosesi nə zaman tam bərpa olunacaq. Bu bizlik məsələ deyil. Bilirsiniz ki, artıq ÜST bu virusu pandemiya elan edib. Bu virus daha da şiddətlənə, güclənə bilər, tədris prosesinin təxirə salınması daha da uzanar. Bu barədə dəqiq proqnoz vermək çətindir. Koronavirus nə qədər təhlükəli olsa da, o bizə bir daha xatırlatdı ki, təhsilin fasiləsizliyini təmin etmək üçün bizim əlavə rezervlərimiz, vasitələrimiz, yollarımız olmalıdır. Bu baxımdan distant təhsil tətbiq edilməlidir. Bu gün Azərbaycanda distant təhsilin ilk dəfə tətbiq edildiyi Dövlət İqtisad Universitetinin təcrübəsi öyrənilməlidir. Bu ali məktəb hələ virus yayılmamışdan əvvəl bu işə başlayıb. UNEC-də o bazanı yaradıblar. Digər universitetlərdə də buna cəhdlər başlayıb".

N.İsrafilov da hesab edir ki, ölkədə internetin keyfiyyəti və fasiləsizliyinin təmin edilməsi üçün aidiyyəti qurumlar öz üzərlərinə düşən işin öhdəsindən gəlməlidirlər. "Ölkədə kütləvi olaraq distant təhsilə keçilməməsinin əsas səbəbi kimi internetin zəif olması göstərilir. Distant təhsil də, dediyim kimi, isternet üzərindən aparılan bir prosesdir. Bizdə internet çox zəifdir, bir də görürsən ki, internet çökdü. Bu probelmin həllinin hansı qurumdan asılı olması da aydınlaşmalıdır" - deyə N.İsrafilov vurğuladı.

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüzün fikrincə də distant təhsilin tətbiqinə mane olan əsas məsələlərdən biri internet problemidir: "Düşünürəm ki, distant təhsilin tətbiqi üçün internet həm keyfiyyətli, həm də əlçatan olmalıdır. Distant təhsilin təşkilində qanunvericiliklə, təhsilin rəqəmsallaşdırılması, universitetlərdə yaradılmalı olan distant təhsil mərkəzləri və s. bağlı problemlər mövcuddur. Yəni bunun bir neçə komponenti var, bunun biri də internetlə bağlıdır. Təhsil alan tələbə üçün internet əlçatan olmalıdır. Təhsil Nazirliyinin teledərsləri onun göstəricisidir ki, bizdə internet əlçatan və keyfiyyətli deyil. Görünür, Təhsil Nazirliyi bundan xeyli ehtiyatlanıb və distant təhsili yox, teledərs layihəsini həyata keçirir. Problemdən çıxış yolu nədir? Bu məsələdə əsas problem, iş Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin üzərindədir.

Nazirlik bir monitorinq aparmalıdır ki, nə üçün distant yox, teledərs? Bunun səbəbi də internetin əlçatan olmamasıdır. Nə üçün internet əlçatan deyil, keyfiyyətsizdir. Nazirlik bunun səbəblərini araşdırmaq üçün regionlarda, Bakıda monitorinqlər aparmalıdır. Burada Azərbaycanın internet bazarında sərbəst, azad rəqabətlə bağlı problemlər də var. Yəni dövlət internet provayderlərinin xüsusi çəkisi yüksəkdir, onlar üçün daha münbit şərait var və dövlət provayderlərinin də internet xidməti kifayət qədər keyfiyyətsizdir. Rəqabətli mühit olmadıqda internet də inkişaf edə bilmir. Bu gün özəl provayderlər internet çəkmək işindən həm regionlarda, həm də Bakıda kənarlaşdırılıb. Ona görə də hesab edirəm ki, aidiyyəti qurumlar baş verənlərdən nəticə çıxarmalıdırlar. Hökumət araşdırmalıdır ki, nə üçün ölkəmizdə distant təhsil texnologiyasından istifadə etmək olmur? İndi aidiyyəti qurumlar bundan ibrət dərsi götürüb ciddi işlər görməlidirlər" - deyə O.Gündüz qeyd etdi.

***İradə SARIYEVA***

# Elmi işlərə dair avtoreferatların tərcüməsi dövlət hesabına aparıla bilərmi...

**Elmlə məşğul olan, elmi dərəcə alıb alim adını qazanan hər bir şəxsin ənənəvi olaraq yazdığı dissertasiya işinin əsasında avtorefarat çap etdirdiyi məlumdur. SSRİ dövründə Azərbaycanda və keçmiş ittifaq respublikalarında çap olunan avtoreferatların mütləq şəkildə rus dilinə də çevilirək nəşr edilməsi vacib idi.**

Bunun əsas səbəblərindən biri həmin avtoreferatların keçmiş SSRİ respublikalarının elmi müəssisələrinə, xüsusən də kitabxanalarına göndərilməsi ilə bağlı idi. Eyni zamanda avtoreferatlar dövrün elmi yeniliklərinin, Azərbaycan alimlərinin tədqiq etdiyi sahələrlə bağlı gəldikləri elmi nəticələrin təbliğ edilməsi idi. Lakin Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra bir sıra sahələrdə baş verən dəyişikliklər elm sahəsindən də yan keçmədi və bu birbaşa avtoreferatların tərcüməsinə də təsir göstərməyə başladı. Əvvəlki dövrlərdə avtoreferatlar rus dili ilə paralel olaraq ingilis dilinə tərcümə edilsə də, sonra aidiyyatı elmi qurumların çıxardığı qərarlara əsasən həm Azərbaycan, həm də rus dilində yazılan dissertasiyaların avtoreferatları yalnız ingilis dilinə tərcümə edilməyə başladı. Məlumatlara görə, avtoreferatın bir səhifəsinin ingilis dilinə tərcümə edilməsi isə dissertant və doktoranta 17 ABŞ dollarına başa gəlir. Qiymət rəsmi olmadığı üçün onunla bağlı hər hansı bir iddia ortaya qoya bilmərik. Amma fakt budur ki, avtoreferatın ingilis dilinə tərcümə edilməsi Azərbaycan elminin beynəlxalq aləmdə yayılmasına heç bir müsbət təsir göstərmir. Kiçik istisnaları nəzərə almasaq deyə bilərik ki, ingilis dilinə tərcümə edilən avtoreferatlar Azərbaycandan kənara çıxmır. Halbuki, Azərbaycan Milli Elmlər Akademiyasının da, ali təhsil müəassisələrinin də əsas hədəfi avtoreferatların daha çox dillərə tərcümə edilərək xarici universitetlərə, elm mərkəzlərinə, kitabxanalara göndərilməsini təmin etmək olmalıdır. Lakin bildiyimiz kimi avtoreferatlar yalnız və yalnız müəllifin maliyə hesabına çap olunmalıdır. Gizlin deyil ki, çox cüzi maaşla işləyən iddiaçı bu avtoreferatın ingilis dilinə çevrilməsi və çap edilməsi üçün bəzən borca girir, bəzən kredit götürür.

Məlumdur ki, bu gün Azərbaycan elmi dünyada tanınmır və elmimizi tanıtmağa məsul olan qurumlar isə buna cəhd göstərmək istəmirlər. Təklif edərdik ki, avtoreferatların xarici dilə tərcümə edilməsi yalnız ingilis dili ilə məhdudlaşmamalıdır, onlar başqa xarici dillərə də tərcümə edilməlidir. Eyni zamanda da avtoreferatların xarici dillərə tərcümə edilib yayılması ilə bağlı xüsusi dövlət konsepsiyası hazırlanmalıdır, proqram müəyyən edilməlidir. Bunun nəticəsində ölkəmizdə çap edilən avtoreferatlar iddiaçıların, müəlliflərin deyil, dövlətin, məhz Milli Elmlər Akademiyasının, universitetlərin hesabına xarici dillərə tərcümə edilməlidir. Bu məsələyə pərakəndə şəkildə yanaşmaq, barmaqarası baxmaq olmaz. Qeyd etdiyimiz kimi əsas hədəf Azərbaycan elmini, müasir Azərbaycan alimlərinin tətdiqat əsərlərini, elmi nəticələrini beynəlxalq elmi ictimaiyyətə çatdırmaq və elmimizi tanıtmaqdır. Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev də elm adamları ilə bütün görüşlərində çağdaş Azərbaycan elmin beynəlxalq aləmdə tanıdılmasını, elm tutumlu ölkələrlə bir sırada olmağımızı Akademiya, eləcə də ali təhsil ocaqları qarşısına məqsəd olaraq qoyub. O da məlumdur ki, dövlət elmə kifayət qədər vəsait ayırsa da, lakin hələ də elmimiz yerində iməkləyir...





***İlqar Orucov:** "Sovet dövründə dissertasiya rus dilində yazılırdısa, avtoreferat da rus dilində olurdu, nəşrin sonunda isə Azərbaycan və ingilis dilində xülasələri verilirdi"*

***İdris Abbasov:** "...Azərbaycan elminə başucalığı gətirə biləcək avtoreferatları müxtəlif xarici dillərdə çap etmək olar"*

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov məsələyə belə izah verdi: "SSRİ dövründə avtoreferatlar dissertasiyanın yazıldığı dildə çap olunurdu. Yəni iddiaçı (elmi iş müdafiə etməyə hazırlaşan şəxs) hansı dildə dissertasiya yazırdısa avtoreferat da həmin dildə nəşr edilirdi. Amma avtoreferatın sonunda avtoreferatın yazıldığı dildən fərqli olar digər iki dildə xülasə verilirdi. Məsələn, Sovet dövründə dissertasiya rus dilində yazılırdısa, avtoreferat da rus dilində olurdu, nəşrin sonunda isə Azərbaycan və ingilis dilində xülasələri verilirdi. Amma dissertasiya Azərbaycan dilində idisə avtoreferat Azərbaycan dilində olurdu və xülasəsi isə rus və ingilis dillərində olurdu. Təbii ki, SSRİ dövründə dissertasiyalar ingilis dilində yazılmırdı, işçi dil kimi rus və Azərbaycan dilləri istifadə olunurdu. Amma indiki dövrdə yenə də bu qaydalar gözlənir. Düşünürəm ki, əslində, bunun gözlənilməsi doğrudur. O ki qaldı avtoreferatların çapına, iddiaçı müdafiədən bir neçə gün əvvəl avtoreferatları çap edib paylamalıdır. Bu avtoreferatlar universitetlərə, müvafiq qurumlara göndərilir. Amma onu deyim ki, bu proses çox zaman formal xarakter daşıyır. Məsələ bundan ibarətdir ki, dissertasiyaların yazıldığı dildə də, əlbəttə, avtoreferat olmalıdır və onun ingilis dilinə tərcümə edilərək paylanmasında da ziyanlı bir şey yoxdur. Nəzərə alsaq ki, indi doktorantura və dissertantura yolu ilə təhsil alanların ingilis dili bilgisi mükəmməldir. Ona görə düşünürəm ki, avtoreferatu iddiaçı ingilis dilində də yaza bilər. Bu sahədə heç bir problem yoxdur. Avtoreferatı iddiaçının yazdığı dissertasiya işinin qısa məzmunu özündə əks etdirir. Burada işin aktuallığı, işin yeniliyi və s. qısa olaraq izah olunur. Hətta fikirləşirəm ki, bu həm də onlayn şəkildə də olmalıdır. Xarici dildə çap olunmağın heç bir zərəri yoxdur. Bu, gələcəkdə həmin işlərə istinad edilməsi ehtimallarını artırır".

İ.Orucov qeyd etdi ki, elmi tərcümələri hər tərcümə işi ilə bağlı olan təşkilat bacarmır, burada xüsusi mütəxəssilərin iştirakı vacibir. "İndiki dövrdə informasiya dövrüdür və istənilən elmi işi onlayn izləmək, onlara istinad etmək mümkündür. Bununla bağlı əslində elmi ictimaiyyət üçün yeni imkanlar açılıb. İddiaçının müdafiəyə təqdim etdiyi iş artıq müdafiəyə qədər onun müxtəlif elmi əsərlərində, müxtəlif məqalələrində əks olunur və yayılır".

İ.Orucov hesab edir ki, avtoreferatların tərcüməsi və çapı elə də böyük məbləğə başa gəlmir. Burada rəngli kağızdan istifadə edilmədiyini və bahalı iş olmadığını deyən İ.Orucovun sözlərinə görə, bunun üçün də dövlətin vəsait ayırmasına ehtiyac yoxdur. İ.Orucov hesab edir ki, bu işin xüsusi konsepsiya əsasında həyata keçirilməsinə ehtiyac yoxdur.

Professor İdris Abbasov isə hesab edir ki, avtoreferatların müxtəlif xarici dillərə tərcümə edilərək çap edilməsi üçün vahid konsepsiyanın yaradılması müsbət olardı. Bununla belə İ.Abbasov hesab edir ki, bura ölkədə yazılan bütün avtoreferatları daxil etmək olmaz. "Mən müasir dövrdə nəşr edilən avtoreferatların ən müxtəlif dillərə tərcümə edilərək dünyaya yayılmasına və bunun üçün vahid konsepsiya hazırlanmasına müsbət yanaşıram. Bu konsepsiya hazırlanacaqsa, burada avtoreferatlara ciddi münasibət olmalıdır. Yox, əgər konsepsiya yaradılacaqsa və burada plagiat elmi işlərə, köçürmələrə, səviyyəsiz, mənasız mövzulara yer veriləcəksə, bu çox mənfi nəticə verə bilər. Təklif etdiyiniz konsepsiya əsasında iddiaçıların hamısının avtoreferatının çap edilməsi, xaricə yayılması bizə müsbət heç nə vəd edə bilməz. Çünki, dediyim kimi, bir çox hallarda yazılan elmi işlərdə plagiatlıq, köçürmələr kimi hallar var. Biz ucdantutma bütün avtoreferatları xarici dillərə çap edib yaysaq, bu bizə problem yarada bilər. Çünki xarici alimlərin elmi əsərlərinin üzünü köçürüb onu öz "elmi işi" kimi təqdim edənlərlə hər addımbaşı rastlaşıram. Təbii ki, plagiat elmi işlərin avtoreferatı da xarici ölkələrin elmi ictimaiyyəti tərəfindən müsbət qarşılanmayacaq.

Biz bununla özümüzü, elmimizi biabır etmiş olarıq. Hesab edirəm ki, xüsusi konsepsiya əsasında dövlətin ayırdığı vəsait hesabına yalnız seçmə, Azərbaycan elminə başucalığı gətirə biləcək avtoreferatları müxtəlif xarici dillərdə çap etmək olar. Konsepsiya formalaşdırılsın, bu yaxşıdır. Amma məni qorxudan Azərbaycan elmini idarə edən şəxslərin həmin konsepsiyadan və dövlətin ayırdığı vəsaitdən suiistifadə etməsidir. İndiyə qədər belə hallar çox olub. Azərbaycan elmi üçün faydalı olan, elmimizi dünyada tanıtmağa qadir bir əsər qalır kənarda, amma dövlət vəsaiti hesabına plagiat elmi işlər kitab şəklində dərc edilir" - deyə İ.Abbasov vurğuladı.

***İradə SARIYEVA***

№ 46 (4177) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

14-16 MART 2020-ci il

www.baki-xeber.com



# Öz ölümündən xəbərdar olan kahin - Nostradamus

**Öz ölümünü bilən fransız həkim, kahin Nostradamus, bu günə kimi yaşanan təbii fəlakətlər haqqında insanlara xəbərdarlıqlar edib.**

Kahinin bu günə kimi dediyi kəhanətləri təqdim edirik. "Milli.Az" xəbər verir ki, revmatizm və bədənə su yığılması nəticəsində vəziyyəti ağırlaşan Nostradamus 1 iyun 1566-cı ildə ona "Gecən xeyrə" deyən keşişə "Bu son gecəmdir. Sabaha sağ çıxmayacam" sözlərini deyib. Kahin 2 iyun 1566-cı ildə öz otağında ölü halda tapılıb. Beləliklə, onun son kəhanəti öz ölumü olub. Belə ki, dünyanın müxtəlif bölgələrində ardıcıllıqla baş verən yanğınlar, zəlzələlər, yoluxucu xəstəliklər 1500-cü ildə yaşayan Nostradamusa öncədən məlum olub. Kahinin ən böyük kəhanətləri arasında koronavirus xəstəliyi dayanır. O, bu xəstəliyin Amerikada böyük fəlakətlərə və ölümlərə səbəb olacağını yazsa da, yoluxucu xəstəlik Çində meydana gəlib. Kahin eyni zamanda 2020-ci ildə kraliça Elizabetin taxtdan enməsini əvvəlcədən deyib. Onun dediklərinə görə kraliça taxtdan enəcək və onun yerinə kişi kral ölkəyə başçılıq edəcək. Nostradamus 2020-ci ili ABŞ üçün fəlakətlər ili adlandırıb. İqlim dəyişkənliyinə görə Avropa ölkələrində isti hava hökm sürəcək. Bu da həqiqətdir ki, 2019-cu ilin yayı Avropa üçün çox isti keçib. 2020-ci ilin yay aylarının da həddindən isti keçməsi gözlənilir. Qlobal istilərin düşdüyü ölkələr ən çox Yunanıstan, Portuqaliya, Fransa, İspaniya, Hollandiya və Almaniya olacaq.

## Qədim Misir muzeyinin qibti və İslam mədəni irsini əks etdirən eksponatları...

**Qədim Misir ehramları və abidələrlə yanaşı, bu ölkədə maraqlı eksponatları olan muzeylər də turistləri cəlb edir. Onlardan ən maraqlısı olan Antik Misir Muzeyi turistləri qibti və İslam mədəni irsinin nümunələri ilə tanış edir.**



"AZƏRTAC" bu unikal eksponatlardan bir neçəsini oxuculara təqdim edir. Qeyd edək ki, Qahirədəki Antik Misir Muzeyində müqəddəs Quranın ən qədim nüsxələrindən biri saxlanılır. Paytaxtın mərkəzində yerləşən muzeydə qorunan bu unikal nüsxə ilə yanaşı, qibti mədəniyyətinə aid olan atifaktlar da nümayiş etdirilir. Muzeyin ətrafındakı mərmər fəvvarə də XI əsrə aiddir. Buradakı Üməyyad və Abbasi bölməsində Məmlüklər, Osmanlı İmperiyası dövrlərindən qalan müxtəlif məişət əşyaları, əlyazmalar, sikkələr, silahlar və xalçalar da qiymətli eksponatlardandır. Digər bölmədə XIII əsrdə İrandan gətirilmiş çini qablar və xalçalar nümayiş etdirilir. İslam inancına görə insan fiqurunun təsviri qadağan olunduğundan, onların üzərində flora və fauna nümunələri, kalliqrafiya eskizləri əks olunub. Muzeydə daha bir maraqlı eksponat qibtilərin perqament kağızların üzərindəki yazıları, habelə sonralar İslam xəttatlarının kalliqrafiya nümunələridir. Antik Misir Muzeyi 1902-ci ildən fəaliyyət göstərir. Burada təxminən 120 min eksponat var. Muzeydə fironlara məxsus dünyanın ən geniş antik əsərlər kolleksiyası və Tutanhamonun xəzinəsi də saxlanılır. İki mərtəbədən ibarət olan muzeydə Qədim Misirə aid və iki min ildən çox yaşı olan sikkə və papirus kolleksiyaları xüsusi maraq doğurur. Papiruslardakı yazılar yunan, latın, ərəb dillərindədir. Sikkələr isə qızıl , gümüş, bürüncdən hazırlanıb. Onların arasında təkcə Misirin deyil, həm də yunan, Roma və İslam numizmatikasının nümunələri var. Muzeyin ikinci mərtəbəsində Misir fironlarının son iki sülaləsinə aid olan artifaktlar diqqəti cəlb edir. 2011-ci ildə baş verən iğtişaşlar zamanı muzeydən 50 eksponat aparılıb, bütpərəstlik rəmzi olduqları bəhanə edilərək iki mumiya sındırılıb. Onlardan yalnız 25-ni tapmaq mümkün olub. Muzey iki il sonra yenidən bərpa olunub və əlavə eksponatlarla zənginləşdirilib. Bu eksponatların arasında Tutanhamonun əsası, qızılla örtülmüş heykəli, firon Exnatonun və Nubiya hökmdarlarının heykəlləri də var.

**Elan**

Bakı şəhəri, Xətai rayonu, Cavanşir küçəsi, ev 27, mənzil 5 ünvanı üzrə Həsənov Emil Məmməd oğlunun adına verilmiş Dövlət Reyestrindən çıxarış (kupça) naməlum şəraitdə itirildiyi üçün etibarsız sayılır.

İsmayılov Fərman Nəriman oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, General Mehmandarov küçəsi, ev 92, mənzil 70 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

"Şəfa-İ" MMC-yə aid çıxarış (seriya MA N0216947) itdiyi üçün etibarsız sayılır, ünvan: Abşeron rayonu, Pereküşkül kəndi.

Ələskərov Məlik Nəcəf oğlunun adına, Xaçmaz rayonu, Xudat şəhəri, Osman Mirzəyev küçəsi, ev 60-a (Kommunist) dair texniki pasport və ev kitabçası itdiyi üçün etibarsız sayılır.

Məmmədov İnqilab Heydər Əli oğlunun adına, Abşeron rayonu, Digah qəsəbəsi, M.F. Axundov küçəsi, 55 saylı yaşayış evinə (25842 nömrəli Reyestr kitabında qeydə alınmış 708 nömrəli inventar işi) verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quluzadə Afət Əhməd qızının adına, Bakı şəhəri, Səbail rayonu, Q.Abbasov küçəsi, ev 25, mənzil 7 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Gərginlik sizi bir işi yarımçıq qoyub başqasına başlamağa vadar etməsin. Yaxın ətrafınızdakı insanlardan biri nüfuzundan yararlanaraq sizə təzyiq etmək istəyəcək. Situasiyalar təhlükəlidir.



**Buğa** - Təhlükəsizlik və maraqlarınızın qeydinə qalın. Əldə edilmiş nəticəni hifz etmək üçün təmkinli və səbrli olun. İmkandan yararlanmağa başladığınızı hiss etsəniz, yarı yolda dayanmayın.



**Əkizlər** - Hisslərin xüsusilə gərildiyi, prioritetlərin dəyişdiyi, həqiqətləri söyləmə ehtiyacın duyulduğu zamandır. Yaşanan olaylar situsiyanı pis və ya yaxşı yönə dəyişə bilər. Aldanmaq istəmirsinizsə, görülməmiş işi görülmüş hesab etməyin.



**Xərçəng** - Nisbətən zəif mövqelərinizi anlamağa, həmin istiqamətdə az sonra nələrin baş verə biləcəyini təxminləməyə çalışın. Biznesdəki tərəfdaş, iş yoldaşı və qohumlar arasında inadkarlıq nümayişi ilə qarşılaşacaqsınız.



**Şir** - Gərgin situasiyaların həllini tapdığı gündür. Yarımçıq qalan işləri başa vurun, alınan informasiyanı təhlil edin. Görüş və təmaslarda hövsələsiz, səbirsiz davranmayın. Tələsik qərarlar, düşünülməmiş addımlar, emosional açıqlamalar yalnız zərər verə bilər.



**Qız** - Yaxın gələcəklə bağlı hədəf və məqsədlərin müəyyənləşdirilməsi sərt rəqabət şəraitində baş verəcək. İntuisiyanızın xəbərdarlıqlarına həssas olun, yaxın vaxtlarda fəaliyyət istiqamətini dəyişə biləcək hadisələrin təmayülünü anlamağa çalışın.



**Tərəzi** - Fəal çalışıb işlərin tam əksəriyyətini bitirmək imkanı var. Yaxın ətrafınızdakı insanlardan nə isə tələb edənə qədər həmin işi özünüz bitirin. Bel bağladığınız insanların başqa planları ola bilər.



**Əqrəb** - Münasibətlərdəki təmayülləri diqqətlə izləyin, gərginliyin yarandığı müstəvini nəzərdən qaçırmayın. Münaqişələrin qarşısını alın, öz təhlükəsizliyiniz və yaxınlarınızın əmin-amanlığının təminatına nail olun.



**Oxatan** - Fəaliyyətiniz buna rəvac verə bilər. Fəaliyyətiniz və planlarınız indi gözlənilməz situasiyalar, dəyişikliklərlə sınağa çəkilir. Yaşamınıza daxil olan nəsnənin qarşısını almayın.



**Oğlaq** - Durumun gərginləşdiyi məsələləri diqqətlə müşahidə edin. Narahat olmayın, ayın problemli günlərindən biri yaşanır. Yaşam və fəaliyyət məkanınızın gərəksiz nəsnələrdən təmizlənməsi üçün əlverişli vaxtdır.



**Dolça** - impulsiv qərarlar qəbul etməyin. Yeni mövzu, yeni araşdırma və ya maraq yarana bilər. Səfərdə və yolda ehtiyatlı olun. Evdə təmiri təxirə salın. Məişət texnikası almaq üçün uğursuz gündür.



**Balıqlar** - tələskənlik və vurnuxma günüdür. Qəza riski olduğundan, yollarda ehtiyatlı və sayıq davranın. Ətrafınızdakı insanlarla münasibətlərdə gərginlik hiss oluna bilər. Önəmli məqamlara və ya hadisələrə yenidən nəzər salmağa imkan verən situasiya yaranır. Sürprizə, qəfil hadisəyə, etirafa, yaşam sirrinizin faş olmasına hazırlaşın. Əyləncə naminə hansısa hadisənin inkişafını sürətləndirməyin

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Robot basketbolçu süni intellektlə performansını artırdı

**"Toyota" işçiləri tərəfindən hazırlanan süni intellektə sahib robot basketbolçu CUE 100 faizlik vuruşu ilə fərqlənib.**



"Ted.az" bildirir ki, şirkət robotu bir az daha da inkişaf etdirərək, dördüncü nəsil CUE-ni yaradıb. "Parke"dəki bütün bucaqları və sürəti hesablayaraq atış edən robot basketbolçu CUE4 süni intellektin də insanlar kimi hərəkət edəcəyini sübut edib. 2019-cu ildə 2020 sərbəst atış edərək "Guinnes-in Rekordlar Kitabı"na düşən CUE, yeni əlləri və karbon lifli çərçivəsi ilə topu özündə tutmağı və qüsursuz atışlar etməyi bacarır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.